**"AzeSteelCompany" Açıq Səhmdar Cəmiyyətinin**
**2021-ci il üzrə illik**
**İdarəetmə Hesabatı**

| | |
|---|---|
| 1. Emitentin tam və qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi | "AzeSteelCompany" Açıq Səhmdar Cəmiyyəti, "AzeSteelCompany" ASC, VÖEN 1000038531, 31.03.2003; |
| 2.emitentin hüquqi ünvanı və olduğu yer; | Azərbaycan Respublikası, Hacıqabul rayonu, Navahi. AZ2419 |
| 3. adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları; | Qurumun adı 14.10.2021-ci il tarixində adı və təşkilati hüquqi forması dəyişdirilmişdir. Əvvəlki adı və təşkilati hüquqi forması "EKSPRESS-C LTD" Məhdud Məsuliyyətli Cəmiyyəti. Qeydiyyata alındığı tarix 31.03.2003-cü il. Qurumun adı 04.05.2022-ci il tarixində adı dəyişdirilmişdir. Əvvəlki adı "EKSPRESS-C" Açıq Səhmdar Cəmiyyəti. Qeydiyyata alındığı tarix 14.10.2021-ci il. |
| 4. emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar; | Yoxdur |
| 5.emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti; | "XƏZƏR İNSAAT-İCN" Məhdud Məsuliyyətli Cəmiyyəti, Hacıqabul rayonu, Navahi qəsəbəsi, "EKSPRESS-C" Açıq Səhmdar Cəmiyyəti 100% paya malik. Çıxarışın verilmə tarixi 31.01.2022-ci il və nömrəsi 2205020063682500. |
| 6.emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı; | Emitent şirkətlər qrupuna daxil deyil. |
| 7.emitentin məşğul olduğu fəaliyyət istiqamətləri; | Sair hazır metal məmulatlarının istehsalı |

| | |
|---|---|
| 8.emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fealiyyət növləri və qüvvədə olma müddətləri; | Yoxdur |
| 9.emitentin təklif etdiyi məhsullar və xidmətlər; | sənaye qazlarının istehsalı, sair hazır metal məmulatlarının istehsalı, ensiz zolaqların və lentlərin soyuq yayılması, pəstahlar və armaturlar. |
| 10.emitentin işçilərinin sayı və onun rüblük dinamikası; | |
| 11. emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı; | Cəmiyyətin Müşahidə Şurası olmayıb.<br>Direktor Hüseynov Zülfəli Məmməd oğlu |
| 12.emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayılıqda sayı; | Fiziki şəxs – 4 nəfər |
| 13.emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat: yığıncağın keçirilmə tarixi və yeri (ünvan);ümumi yığıncaqda qəbul edilmiş qərarlar. | 01.11.2021-ci il – istiqraz buraxılışı haqqında qərar. Bakı şəh., Nəsimi ray., Tbilisi pr., məhəllə 3007, 44C;<br>03.11.2021-ci il — istiqraz buraxılışı haqqında qərar Bakı şəh., Nəsimi ray., Tbilisi pr., məhəllə 3007, 44C;<br>02.12.2021-ci il – istiqraz buraxılışı haqqında qərar Bakı şəh., Nəsimi ray., Tbilisi pr., məhəllə 3007, 44C; |
| 14.emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir):<br><br>-investisiya qiymətli kağızın növü və forması;<br><br>- investisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat<br>tarixi;<br>- investisiya qiymətli kağızların miqdarı və nominal dəyəri;<br><br>- | -<br><br>Sənədsiz, adi səhmlər;<br><br>AZ1001023600 04.11.2021-ci il<br><br>8354900 (səkkiz milyon üç yüz əlli dörd min doqquz yüz) ədəd, hər birinin nominal dəyəri 1 (bir) manat; |

| | |
|---|---|
| - investisiya qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri;<br><br>- hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər<br><br>haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği göstərilir);<br>- faizli istiqrazlar buraxılışı haqqında məlumatda<br>- istiqrazlar üzrə gəlirliyin illik<br>faiz dərəcəsi;<br>- investisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda). | 8354900 (səkkiz milyon üç yüz əlli dörd min doqquz yüz) manat;<br><br>Dividend ödənilməyib;<br><br>Dividend ödənilməyib;<br><br>3000 (üç min) sənədsiz adlı faizli təmin edilməmiş istiqrazlar;<br>12,5 faiz;<br>"AzFinance İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti |
| 15.emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar: əqdin məbləği; hesabat tarixinə əqdin ödənilməmiş hissəsi. | Yoxdur |
| 16.emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar:<br>- bağlanılmış əqdin mahiyyəti, tarixi və məbləği;<br>- aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi. | Yoxdur |
| 17.illik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi; | 30.05.2022-ci il |
| 18.hesabatın açıqlanma mənbəyi haqqında məlumat. | www.cbar.meas.az |

**İcra Orqanının Rəhbəri**: İdarə heyətinin sədri İsmayılov Ə.N.

**Baş Mühasib**: Əzizov Böyükağa Əli oğlu

# "AzeSteelCompany" Açıq Səhmdar Cəmiyyətinin
# 2021-ci il üzrə illik
# İdarəetmə Hesabatı

| | |
|---|---|
| 1. Emitentin tam və qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi | "AzeSteelCompany" Açıq Səhmdar Cəmiyyəti, "AzeSteelCompany" ASC, VÖEN 1000038531, 31.03.2003; |
| 2.emitentin hüquqi ünvanı və olduğu yer; | Azərbaycan Respublikası, Hacıqabul rayonu, Navahi. AZ2419 |
| 3. adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları; | Qurumun adı 14.10.2021-ci il tarixində adı və təşkilati hüquqi forması dəyişdirilmişdir.<br>Əvvəlki adı və təşkilati hüquqi forması "EKSPRESS-C LTD" Məhdud Məsuliyyətli Cəmiyyəti. Qeydiyyata alındığı tarix 31.03.2003-cü il.<br>Qurumun adı 04.05.2022-ci il tarixində adı dəyişdirilmişdir.<br>Əvvəlki adı "EKSPRESS-C" Açıq Səhmdar Cəmiyyəti. Qeydiyyata alındığı tarix 14.10.2021-ci il. |
| 4. emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar; | Yoxdur |
| 5.emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti; | "XƏZƏR İNSAAT-İCN" Məhdud Məsuliyyətli Cəmiyyəti, Hacıqabul rayonu, Navahi qəsəbəsi, "EKSPRESS-C" Açıq Səhmdar Cəmiyyəti 100% paya malik. Çıxarışın verilmə tarixi 31.01.2022-ci il və nömrəsi 2205020063682500. |
| 6.emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı; | Emitent şirkətlər qrupuna daxil deyil. |
| 7.emitentin məşğul olduğu fəaliyyət istiqamətləri; | Sair hazır metal məmulatlarının istehsalı |

| | |
|---|---|
| 8.emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri; | Yoxdur |
| 9.emitentin təklif etdiyi məhsullar və xidmətlər; | sənaye qazlarının istehsalı, sair hazır metal məmulatlarının istehsalı, ensiz zolaqların və lentlərin soyuq yayılması, pəstahlar və armaturlar. |
| 10.emitentin işçilərinin sayı və onun rüblük dinamikası; | |
| 11. emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı; | Cəmiyyətin Müşahidə Şurası olmayıb.<br>Direktor Hüseynov Zülfəli Məmməd oğlu |
| 12.emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayılıqda sayı; | Fiziki şəxs – 4 nəfər |
| 13.emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat: yığıncağın keçirilmə tarixi və yeri (ünvan);ümumi yığıncaqda qəbul edilmiş qərarlar. | 01.11.2021-ci il – istiqraz buraxılışı haqqında qərar. Bakı şəh., Nəsimi ray., Tbilisi pr., məhəllə 3007, 44C;<br>03.11.2021-ci il — istiqraz buraxılışı haqqında qərar Bakı şəh., Nəsimi ray., Tbilisi pr., məhəllə 3007, 44C;<br>02.12.2021-ci il – istiqraz buraxılışı haqqında qərar Bakı şəh., Nəsimi ray., Tbilisi pr., məhəllə 3007, 44C; |
| 14.emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir): | - |
| -investisiya qiymətli kağızın növü və forması; | Sənədsiz, adi səhmlər; |
| - investisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi; | AZ1001023600 04.11.2021-ci il |
| - investisiya qiymətli kağızların miqdarı və nominal dəyəri; | 8354900 (səkkiz milyon üç yüz əlli dörd min doqquz yüz) ədəd, hər birinin nominal dəyəri 1 (bir) manat; |
| - | |

| | |
|---|---|
| - investisiya qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri;<br><br>- hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər<br><br>haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği göstərilir);<br>- faizli istiqrazlar buraxılışı haqqında məlumatda<br>- istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi;<br>- investisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda). | 8354900 (səkkiz milyon üç yüz əlli dörd min doqquz yüz) manat;<br><br>Dividend ödənilməyib;<br><br>Dividend ödənilməyib;<br><br>3000 (üç min) sənədsiz adlı faizli təmin edilməmiş istiqrazlar;<br>12,5 faiz;<br>"AzFinance İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti |
| 15.emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar: əqdin məbləği; hesabat tarixinə əqdin ödənilməmiş hissəsi. | Yoxdur |
| 16.emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar:<br>- bağlanılmış əqdin mahiyyəti, tarixi və məbləği;<br>- aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi. | Yoxdur |
| 17.illik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi; | 30.05.2022-ci il |
| 18.hesabatın açıqlanma mənbəyi haqqında məlumat. | www.cbar.meas.az |

**İcra Orqanının Rəhbəri**: İdarə heyətinin sədri İsmayılov Ə.N.

**Baş Mühasib**: Əzizov Böyük Əli oğlu

# “EKSPRESS-C”
# AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

**31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə**

**Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Uyğun Konsolidasiya Edilmiş Maliyyə Hesabatları və Müstəqil Auditorun Hesabatı**

# “EKSPRESS-C” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## MÜNDƏRİCAT

**Səhifə**


KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI

MÜSTƏQIL AUDITORUN HESABATI.......................................1-3

KONSOLIDASIYA EDILMIŞ MALIYYƏ HESABATI

Konsolidasiya edilmiş Maliyyə Vəziyyəti haqqında Hesabat ....................... 4
Konsolidasiya edilmiş Mənfəət və ya Zərər və Sair Məcmu Gəlirlər haqqında Hesabat ....................... 5
Konsolidasiya edilmiş Kapitalda Dəyişikliklər haqqında Hesabat....................... 6
Konsolidasiya edilmiş Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat ....................... 7

Konsolidasiya edilmiş Maliyyə Hesabatları üzrə qeydlər.......................8-46

`

## KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI 31 DEKABR 2021-Cİ İL TARİXİNƏ

Aşağıdakı bəyanat, müstəqil auditorun hesabatında (hesabatın 1-ci səhifəsi) göstərilmiş auditorun rəyində olan vəzifələr haqqında müddəalarla birgə oxunmalıdır və "EKSPRESS-C" ASC-nin (bundan sonra "Qrup") maliyyə hesabatları ilə əlaqədar rəhbərlik və müstəqil auditorlar arasında müvafiq vəzifə bölgüsünü əks etdirmək məqsədi daşıyır.

Rəhbərlik Qrupun 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə fəaliyyətinin nəticələrini, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq qaydada əks etdirən konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarını hazırlayarkən, rəhbərlik:

• Müvafiq mühasibat prinsiplərinin seçilməsi və uyğun olaraq tətbiq edilməsi;
• Məntiqli və məqsədəuyğun qərarların və mülahizələrin qəbul edilməsi;
• Hər hansı əhəmiyyətli kənarlaşmaların açıqlanması və maliyyə hesabatlarında izah edilməsi şərti ilə MHBS-nın tələblərinə riayət olunması; və
• Əgər yaxın gələcəkdə, Qrupun normal şərtlər altında fəaliyyətini davam etdirəcəyi güman edilirsə, hesabat tarixinə maliyyə hesabatlarının fəaliyyətin davamlılığı prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

Rəhbərlik həmçinin:

• Qrupun daxilində səmərəli və yüksək səviyyəli daxili nəzarət sisteminin təşkili, tətbiqi və qorunması;
• Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanması və maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat uçotu sisteminin təşkil olunması;
•Mühasibat uçotunun Azərbaycan Respublikasında qəbul edilmiş qanunvericilik və mühasibat uçotu standartlarına müvafiq qaydada aparılması;
•Mümkün imkanlardan istifadə edərək Qrupun aktivlərinin qorunmasının təmin edilməsi; və
•Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması üçün məsuliyyət daşıyır.

31 dekabr 2021-ci il tarixində tamamlanan il üzrə maliyyə hesabatları Qrupun rəhbərliyi tərəfindən 07 iyul 2022-ci il tarixində təsdiq edilmişdir.

**Rəhbərlik tərəfindən:**

Azərbaycan Respublikası Açıq Səhmdar Cəmiyyəti AzeSteelCompany Open Joint-Stock Company Azerbaijan Republic

**Əli İsmayılov**
**İdarə Heyətinin Sədri**

07 iyul 2022
**Bakı, Azərbaycan**

**Bəylər Bakirov**
**Baş Mühasib**

07 iyul 2022
**Bakı, Azərbaycan**

## MÜSTƏQİL AUDİTORUN RƏYİ

" EKSPRESS-C " Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarına və İdarə heyətinə:

**Şərti rəy**

Biz "EKSPRESS-C" Açıq Səhmdar Cəmiyyətinin və onun törəmə müəssisələrinin ("Qrup") 31 dekabr 2021-ci il tarixinə təqdim edilən konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlirlər, konsolidasiya edilmiş kapitalda dəyişikliklər və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas uçot siyasətinin və digər izahedici məlumatların xülasəsindən ibarət olan konsolidasiya edilmiş maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

Bizim rəyimizcə, "Şərti rəyin bildirilməsi üçün əsas" bəndində açıqlanan məsələlərin mümkün təsirləri istisna olmaqla, hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları Qrupun 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini, və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq düzgün və ədalətli şəkildə əks etdirir.

**Şərti rəyin bildirlməsi üçün əsas**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblər üçün müəyyən etdiyi "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq biz Qrupdan asılı deyilik və biz digər etik öhdəliklərimizi MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Biz Qrupun auditoru kimi 13 aprel 2022-ci il tarixində təyin edildik və buna görə də 31 dekabr 2021-ci il tarixinə mal-material ehtiyatlarının fiziki inventarizasiyasını müşahidə edə bilmədik. Biz digər audit prosedurlarını tətbiq etməklə 31 dekabr 2021-ci il tarixinə mal-material ehtiyatlarının kəmiyyətinə dair əminlik əldə edə bilmədik. Mal-material ehtiyatlarının qalıqları maliyyə nəticələri və pul vəsaitlərinin hərəkətinin müəyyən edilməsi prosesinin bir hissəsi olduğu üçün biz mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda göstərilmiş 31 dekabr 2021-ci il tarixinə bitən il üzrə mənfəətlə bağlı və pul vəsaitlərinin hərəkəti haqqında hesabatda göstərilmiş əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitlərinin hərəkəti ilə bağlı hər hansı düzəlişlərin zəruri olub-olmadığını müəyyən edə bilmədik.

**Digər məsələ**

31 dekabr 2020-ci il tarixinə bitən il üzrə Cəmiyyətin maliyyə hesabatları digər audit şirkəti tərəfindən audit olunmuş və 31 mart 2020-ci il tarixində maliyyə hesabatlarına dair şərti rəy bildirmişdir.

**Konsolidasiya edilmiş maliyyə hesabatlarına görə rəhbərliyin və korporativ idarəetmə üzrə cavabdeh olan şəxslərin məsuliyyəti**

Rəhbərlik hazırkı Konsolidasiya edilmiş maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik, Qrupu ləğv etmək və ya onun fəaliyyətini dayandırmaq istəyi yaxud bundan başqa hər hansı digər real alternativi olmadığı hallar istisna olmaqla, Qrupun öz fəaliyyətini fasiləsiz davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi, uyğun olduqda fəaliyyətin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanması və fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Korporativ idarəetmə üzrə cavabdeh olan şəxslər Qrupun Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

**Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq Konsolidasiya edilmiş maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatının hazırlanmasından ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur. Lakin belə əminlik səviyyəsi Beynəlxalq Audit Standartlarına uyğun auditin aparılması zamanı bütün əhəmiyyətli təhriflərin aşkar olunacağına zəmanət vermir. Fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək təhriflər o halda əhəmiyyətli hesab edilir ki, onlar ayrı-ayrılıqda və ya bütövlükdə Konsolidasiya edilmiş maliyyə hesabatları əsasında istifadəçilərin qəbul etdikləri iqtisadi qərarlara təsir göstərə bilsin.

Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit çərçivəsində biz auditin aparıldığı bütün müddət ərzində peşəkar mülahizələr irəli sürür və peşəkar skeptisizmi saxlayırıq. Bundan əlavə biz

- Saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq Konsolidasiya edilmiş maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərini müəyyən edir və qiymətləndirir, bu risklərə qarşı audit prosedurları işləyib hazırlayır və tətbiq edir; rəyimizin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edən audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir. Belə ki, fırıldaqçılıq gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, təhrif edilmiş şəkildə təqdim edilməsi və ya daxili nəzarət sistemində sui-istifadə hallarını nəzərdə tutur.

- Qrupun daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının işlənib hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxil nəzarət sistemi üzrə məlumat əldə edirik.

- Tətbiq edilən uçot siyasətlərinin uyğunluğunu, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların əsaslı olduğunu qiymətləndiririk.

- Fəaliyyətin fasiləsizliyi ilə bağlı rəhbərliyin mülahizələrinin uyğunluğu və əldə edilmiş audit sübutlarına əsasən Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyəti ilə bağlı əhəmiyyətli dərəcədə şübhə yarada biləcək hadisə və şərait üzrə qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair fikir bildiririk. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu barədə nəticəyə gəldikdə, biz auditor rəyimizdə diqqəti Konsolidasiya edilmiş maliyyə hesabatlarındakı müvafiq açıqlamalara cəlb etməli, belə açıqlamalar yetərli olmadıqda, rəyimizi dəyişdirməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və şəraitlər Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətini dayandırmasına səbəb ola bilər.

- Konsolidasiya edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, o cümlədən açıqlamaları və maliyyə hesabatlarında mövcud əməliyyatlar və hadisələrin düzgün təqdim edilməsini qiymətləndiririk.

- Konsolidasiya edilmiş maliyyə hesabatları haqqında rəy bildirmək üçün Qrupa daxil olan müəssisələrin maliyyə məlumatları və Qrupun biznes fəaliyyəti ilə bağlı kifayət qədər audit sübütlarını əldə edirik. Biz qrup auditinin yönləndirilməsi, nəzarət edilməsi və nəticələrinə görə məsuliyyət daşıyırıq. Biz audit rəyinə görə müstəsna məsuliyyət daşıyırıq.

Biz digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və vaxtı, əhəmiyyətli audit nəticələri, eləcə də audit prosesində müəyyən etdiyimiz daxili nəzarət sistemindəki əhəmiyyətli çatışmazlıqlar barədə məlumat təqdim edirik.

**07 iyul 2022**

RSM Azerbaijan

**Bakı, Azərbaycan Respublikası**

**"EKSPRESS-C" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**
**KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2021-Cİ İL TARİXİNƏ**
*(Azərbaycan manatı ilə)*

| | Qeyd | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əmlak və avadanlıqlar | 7 | 8,611,608 | 980,339 |
| Təxirə salınmış vergi aktivləri | 20 | 27,313 | - |
| **Cəmi uzunmüddətli aktivlər** | | **8,638,921** | **980,339** |
| **Cari aktivlər** | | | |
| Mal-material ehtiyatları | 8 | 2,400,928 | 24,963 |
| Ticarət və digər debitor borcları | 9 | 2,046,485 | 51,270 |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | | 1,303,212 | 89,121 |
| **Cəmi cari aktivlər** | | **5,750,625** | **165,354** |
| **CƏMİ AKTİVLƏR** | | **14,389,546** | **1,145,693** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | | 8,354,900 | 100 |
| Digər kapital | 2 | 193,814 | - |
| Bölüşdürülməmiş mənfəət | | 408,327 | 61,062 |
| **CƏMİ KAPİTAL** | | **8,957,041** | **61,162** |
| **ÖHDƏLİKLƏR** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Buraxılmış borc qiymətli kağızları | 11 | 3,020,139 | - |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **3,020,139** | **-** |
| **Cari öhdəliklər** | | | |
| Borc vəsaitləri | 12 | 1,175,721 | 793,940 |
| Səhmdardan alınmış borc öhdəlikləri | 13 | 22,500 | 245,038 |
| Ticarət və digər kreditor borclar | 14 | 1,057,163 | 15,000 |
| Digər cari öhdəliklər | 15 | 156,982 | 30,553 |
| **Cəmi cari öhdəliklər** | | **2,412,366** | **1,084,531** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **5,432,505** | **1,084,531** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **14,389,546** | **1,145,693** |

**İdarə Heyəti adından:**

**Əli İsmayılov**
**İdarə Heyətinin Sədri**

07 iyul 2022
**Bakı, Azərbaycan**

**Bəylər Bəkirov**
**Baş Mühasib**

07 iyul 2022
**Bakı, Azərbaycan**

**"EKSPRESS-C" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**
**KONSOLİDASIYA EDİLMİŞ MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT**
**31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**
*(Azərbaycan manatı ilə)*

| | Qeyd | 31 dekabr 2021-ci il tarixində bitən il | 31 dekabr 2020-ci il tarixində bitən il |
|---|---|---|---|
| Gəlirlər | 16 | 2,422,925 | 1,769,338 |
| Satışların maya dəyəri | 17 | (1,831,981) | (1,646,836) |
| **Ümumi gəlir** | | **590,944** | **122,502** |
| İnzibati xərclər | 18 | (70,926) | (49,144) |
| **Əməliyyat gəliri** | | **520,018** | **73,358** |
| Faiz xərcləri | 19 | (99,417) | (104,000) |
| Məzənnə fərqindən zərər | | (1,520) | - |
| **Vergidən əvvəlki mənfəət** | | **419,081** | **(30,642)** |
| Mənfəət vergisi xərci | 20 | (71,816) | - |
| **İl üzrə xalis mənfəət** | | **347,265** | **(30,642)** |
| **Digər məcmu gəlirlər** | | - | - |
| **İl üzrə xalis mənfəət və digər məcmu gəlir** | | **347,265** | **(30,642)** |

**İdarə Heyəti adından:**

AzeSteelCompany

**Əli İsmayılov**
**İdarə Heyətinin Sədri**
07 iyul 2022
**Bakı, Azərbaycan**

**Bəylər Bəkirov**
**Baş Mühasib**
07 iyul 2022
**Bakı, Azərbaycan**

8-46-cı səhifələrdə verilmiş qeydlər konsolidasiya edilmiş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

**"EKSPRESS-C" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**
**KONSOLİDASİYA EDİLMİŞ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**
**31 DEKABR 2021-Cİ IL TARIXINDƏ BITƏN IL ÜZRƏ**
*(Azərbaycan manatı ilə)*

| | Nizamnamə kapitalı | Digər kapital | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **31 dekabr 2019-ci il tarixinə** | **100** | **-** | **101,704** | **101,804** |
| Dividend ödənişi | - | - | (10,000) | (10,000) |
| İl üzrə xalis zərər | - | - | (30,642) | (30,642) |
| **31 dekabr 2020-ci il tarixinə** | **100** | **-** | **61,062** | **61,162** |
| Nizamnamə kapitalında artım | 8,354,800 | - | - | **8,354,800** |
| Digər kapitalda artım | - | 193,814 | - | **193,814** |
| İl üzrə xalis mənfəət | - | - | 347,265 | **347,265** |
| **31 dekabr 2021-ci il tarixinə** | **8,354,900** | **193,814** | **408,327** | **8,957,041** |

**İdarə Heyəti adından:**

**Əli İsmayılov**
**İdarə Heyətinin Sədri**

07 iyul 2022
**Bakı, Azərbaycan**

Azərbaycan Respublikası Açıq Səhmdar Cəmiyyəti AzaSteelCompany Open Joint-Stock Company Azerbaijan Republic

**Baylər Bəkirov**
**Baş Mühasib**

07 iyul 2022
**Bakı, Azərbaycan**

**"EKSPRESS-C" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**
**KONSOLİDASİYA EDİLMİŞ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**
*(Azərbaycan manatı ilə)*

| | 31 dekabr 2021-ci il tarixində bitən il | 31 dekabr 2020-ci il tarixində bitən il |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | |
| **Vergidən əvvəlki gəlir/(zərər)** | **419,081** | **(30,642)** |
| *Düzəlişlər:* | | |
| Amortizasiya | 58,536 | 112,695 |
| Xarici valyuta əməliyyatlarından xalis zərər | 1,520 | - |
| Faiz xərci | 99,417 | 104,000 |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | **578,554** | **186,053** |
| *Əməliyyat aktivlərində (artım)/azalma* | | |
| Mal-material ehtiyatlarında dəyişiklik | (615,582) | 3,777 |
| Ticarət və digər debitor borclarında dəyişiklik | (1,905,968) | (20,718) |
| Vergi aktivlərində dəyişiklik | - | 4,388 |
| Ticarət və digər kreditor borclarda dəyişiklik | (231,050) | (59,527) |
| Digər cari öhdəliklərdə dəyişiklik | 131,743 | 12,345 |
| **Əməliyyat fəaliyyəti üzrə daxil olan pul vəsaitləri** | **(2,042,303)** | **126,318** |
| Ödənilmiş vergilər | (99,129) | - |
| Ödənilmiş faizlər | (79,278) | (104,000) |
| **Əməliyyat fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | **(2,220,710)** | **22,318** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | |
| Əmlak və avadanlıqların alınması | - | (901,321) |
| Törəmə müəssisənin alınmasından əldə edilmiş xalis nağd pul | 32,040 | - |
| **İnvestisiya fəaliyyətindən yaranan xalis pul vəsaitləri** | **32,040** | **(901,321)** |
| **Maliyyələşdirmə fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | |
| Dividend ödənişi | - | (10,000) |
| Buraxılmış borc qiymətli kağızları | 3,000,000 | - |
| Borc vəsaitlərində artım | 1,000,000 | 645,038 |
| Səhmdardan alınmış borc öhdəliklərində artım | 22,500 | - |
| Borcların qaytarılması | (618,219) | (156,060) |
| **Maliyyələşdirmə fəaliyyətindən yaranan xalis pul vəsaitləri** | **3,404,281** | **478,978** |
| *Məzənnə fərqlərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri* | *(1,520)* | - |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım/(azalma)** | **1,214,091** | **(400,025)** |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | **89,121** | **489,146** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **1,303,212** | **89,121** |

**İdarə Heyəti adından:**

**Əli İsmayılov**
**İdarə Heyətinin Sədri**
07 iyul 2022
**Bakı, Azərbaycan**

**Bəylər Bəkirov**
**Baş Mühasib**
07 iyul 2022
**Bakı, Azərbaycan**

## 1. Giriş

### Qrup və onun əsas fəaliyyəti

Bu konsolidə edilmiş maliyyə hesabatları 31 dekabr 2021-ci il tarixində bitən il üzrə “EKSPRESS-C” Açıq Səhmdar Cəmiyyəti və onun törəmə müəssisəsi “XƏZƏR İNSAAT-İCN” Məhdud Məsuliyyətli Cəmiyyəti üçün Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq hazırlanmışdır.

“EKSPRESS-C” Açıq Səhmdar Cəmiyyəti Azərbaycan İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsində 1000038531 saylı VÖEN ilə qeydiyyatdadır və Azərbaycan Respublikasında fəaliyyət göstərir. Cəmiyyətin dövlət qeydiyyatından keçmiş hüquqi ünvanı AZ2419, Hacıqabul rayon Navahi qəsəbəsidir. Cəmiyyətin əsas biznes fəaliyyəti sənaye qazlarının istehsalı, sair hazır metal məmulatlarının istehsalı, ensiz zolaqların və lentlərin soyuq yayılmasından ibarətdir. 31 dekabr 2021 və 2020 -ci il tarixlərinə Qrupun idarə edici tərəfi Dəmirçi ailəsidir. 31 dekabr 2021-ci il tarixinə Qrupun 51 nəfər (31 dekabr 2020-ci il: 53 nəfər) işçisi vardır.

“XƏZƏR İNSAAT-İCN” Məhdud Məsuliyyətli Cəmiyyəti Qrupun 100%-lik törəmə müəssisəsidir. 06 avqust 2019-cu ildə 8100771691 saylı VÖEN ilə qeydiyyata alınmışdır və Azərbaycan Respublikasında fəaliyyət göstərir. Cəmiyyətin dövlət qeydiyyatından keçmiş hüquqi ünvanı AZ2419, Hacıqabul rayon Navahi qəsəbəsidir. Cəmiyyətin əsas biznes fəaliyyəti hazır metal məmulatlarının istehsalından ibarətdir. 31 dekabr 2021-ci il tarixinə Qrupun 149 nəfər (31 dekabr 2020-ci il: 33 nəfər) işçisi vardır.

### Qrupun Səhmdarları:

| | **31 dekabr 2021** | **31 dekabr 2020** |
|---|---|---|
| CAMALƏDDİN İSMAYILOV | 69.4% | 100% |
| KƏNAN AĞAYEV | 20.6% | - |
| ÖMƏR HÜSEYNOV | 10% | - |
| **Cəmi** | **100%** | **100%** |

## 2. Qrupun strukturunda dəyişiklik

01 dekabr 2021-ci il tarixində Qrup hazır metal məmulatlarının istehsalı sahəsində fəaliyyət göstərən “XƏZƏR İNSAAT-İCN” Məhdud Məsuliyyətli Cəmiyyətinin buraxılmış nizamnamə kapitalının 100%-ni əldə etdi və bununla “XƏZƏR İNSAAT-İCN” MMC-yə tam nəzarəti əldə etdi. “XƏZƏR İNSAAT-İCN” MMC MMC, “EKSPRESS-C” Açıq Səhmdar Cəmiyyətinin strategiyasına uyğun olaraq alınıb və metallurgiya sənayesində gələcək inkişaf və imkanlar üçün platforma olacaq.

## 2. Qrupun strukturunda dəyişiklik (davamı)

Alınmış müəyyən edilə bilən aktivlərin və qəbul edilmiş öhdəliklərin ədalətli dəyəri aşağıdakı cədvəldə göstərildiyi kimidir.

| | **01 dekabr 2021** |
|---|---:|
| Əmlak və avadanlıqlar | 315,344 |
| Mal-material ehtiyatları | 1,760,383 |
| Ticarət və digər debitor borcları | 89,247 |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 32,140 |
| Ticarət və digər kreditor borclar | (1,872,843) |
| Digər cari öhdəliklər | (130,357) |
| **Cəmi əldə edilmiş aktivlər** | **193,914** |
| Ödənilmiş məbləğ | (100) |
| **Cəmi əldə edilmiş xalis aktivlər** | **193,814** |

Alışdan yaranan 193,814 AZN məbləğində xalis aktivlər "EKSPRESS-C" Açıq Səhmdar Cəmiyyətinin konsolidasiya edilmiş maliyə vəziyyəti haqqında hesabatında digər kapitala aid edilmşdir.

Alınmış törəmə müəssisənin aktiv və öhdəlikləri bu konsolidə edilmiş maliyyə hesabatlarında alışdan əvvəlki balans dəyəri ilə qeydə alınır. Bu törəmə müəssisənin aktivlərinin balans dəyəri ilə Qrup tərəfindən ödənilən kompensasiya arasında hər hansı fərq bu konsolidə edilmiş maliyyə hesabatlarında digər kapital kimi uçota alınır. Alınan müəssisənin nəticələri alınma tarixindən əks olunur.

## 3. Qrupun əməliyyat mühiti

Qrup fəaliyyətini əsasən Azərbaycan Respublikasında həyata keçirir və nəticədə, Azərbaycanın iqtisadi və maliyyə bazarlarının inkişaf etməkdə olan bazar xüsusiyyətlərinə məruz qalır.

Neft ixrac edən bir ölkə kimi və neftin dövlət büdcəsinin həcmi, eləcə də dəyəri etibarı ilə əsas paya sahib olduğu üçün Azərbaycan iqtisadiyyatı neftin dəyərindən əhəmiyyətli dərəcədə aslıdır. Bu səbəbdən sözügedən sahənin qiymətlərində yaranan fərqlər iqtisadiyyat üzərində böyük təsirə malikdir və neftin dəyərindəki kəskin dəyişikliklər valyuta dəyərdən düşməsi, iqtisadiyyat və sənaye sahələrinin inkişafında ləngimələr, həmçinin pul vəsaitlərinin dövriyyəsində yaranan qeyri-sabitlik kimi bu və ya digər makro-iqtisadi faktorların mövcudluğuna gətirib çıxarır.

Azərbaycan nefti 2021-ci il ərzində neft birjalarında yüksəliş tendensiyası göstərmişdir."Azeri Light" markalı neftin bir barelinin qiyməti artaraq 82.07 dollar olmuşdur. Azərbaycanda sənayenin strukturunda da qeyrineft-qaz sektorunun xüsusi çəkisi daha sürətlə artır. Azərbaycan dördüncü sənaye inqilabının tələblərinə uyğun inkişaf edir.İlin ikinci yarısında Avropada təşviş yarandı. Təbii qazın qiyməti artmağa başladı və bir neçə dəfə tarixi rekordları yenilədi. Sonuncu ən yüksək göstərici dekabrın 21-də əldə olundu. Həmin vaxt Avropada "mavi yanacağın" birja qiyməti min kubmetr üçün 2,150 ABŞ dollarına çatdı. Bu hadisələrin fonunda enerji bazarı iştirakçılarının diqqəti Azərbaycana yönəlib. İlkin olaraq, bu il ölkənin Avropaya 5 milyard kubmetrədək qaz ixrac edəcəyi planlaşdırılsa da, 2021-ci ilin yanvar-noyabr ayları ərzində faktiki ixrac həcmi 7.3 milyard kubmetr təşkil edib.

## 3. Qrupun əməliyyat mühiti (davamı)

2021-ci ildə -dünyada hökm sürən dərin sosial-iqtisadi böhrana baxmayaraq, bir çox əsas sahələr üzrə inkişaf templəri qorunub saxlanıldı. 2021-ci ildə, eyni zamanda işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa işlərinə başlanıldı, Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə 500 milyonuncu ton neft ixrac edildi, Azərbaycan və Türkmənistan "Dostluq" yatağının birgə işlənməsi haqqında razılığa gəldilər, qeyri-neft ixracı tarixi rekorda çatdı. Bu il dünya üçün ikinci "koronavirus ili" oldu. Əgər 2020-ci il şok effekti qlobal iqtisadiyyata ciddi zərbə vurmuşdusa, 2021-ci ildə dünya tədricən özünə gəlməyə başladı.

Böhran idarəetməsi dövrü 2020-ci ilin martından başlamış və 2021-ci ilin aprelində yekunlaşmışdır. Prezident İlham Əliyevin rəhbərliyilə Azərbaycan dövləti eyni vaxtda pandemiya, quraqlıq, aşağı neft qiymətləri və Ermənistanın hərbi təxribatına qarşı böhran idarəetməsi nümunəsi göstərdi. 2021-ci ilin ortalarına doğru resesiya dayandı və iqtisadi artım bərpa olundu. Azərbaycan pandemiya ilə mübarizə nəticələrinə, eyni zamanda vaksinləşmə siyasətinə görə öncül mövqe tutmaqla yanaşı, həm də qlobal səviyyədə töhfəsini verdi.

İqtisadiyyat Nazirliyi 2021-ci ilin yekunları üzrə ÜDM-in artımını 5.1 faiz proqnozlaşdırıb. Eyni zamanda, Dünya Bankı da Azərbaycanda 2021-ci ildə iqtisadiyyatın artımını 2.9 faizdən 5 faizədək proqnozlaşdırıb. Proqnozlara əsasən, 2021-ci ildə qeyri-neft sektorunun artımı xidmət, kənd təsərrüfatı sahələrinin və sənayenin artımı nəticəsində 7.1 faiz təşkil edəcək.

29 yanvar 2021-ci ildə Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti uçot dərəcəsinin 6.25% səviyyəsində dəyişməz saxlanılması haqqında qərar qəbul etmişdir. Faiz dəhlizinin aşağı həddi 5.75%, yuxarı həddi isə 6.75% səviyyəsində saxlanılmışdır. 17 dekabr 2021-ci ildə Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin qərarı ilə uçot dərəcəsi 7.25%, faiz dəhlizinin aşağı həddi 6%, yuxarı həddi isə 8.25% səviyyəsində müəyyən edilmişdir.llik inflyasiyanın artması əsasən dünya birja əmtəələrinin bahalaşması və qlobal təchizat zəncirində problemlər kimi xarici mənşəli təklif və xərc şokları ilə izah edilir. Profisitli tədiyə balansı və qəbul edilmiş makroiqtisadi platforma risk balansında artırıcı amilləri ortamüddətli perspektivdə neytrallaşdırma potensialına malikdir.

2022-ci ilə qəbul edilmiş dövlət büdcəsində neft transfertlərinin əvvəlki illə müqayisədə artması milli valyutanın məzənnəsinin dayanıqlığını dəstəkləyəcəkdir. Digər tərəfdən anti-inflyasiya xarakterli pul siyasəti daxili tələbin monetar amillərin tarazlı səviyyədə qorunmasına xidmət edəcəkdir. Müvəqqəti xarici və daxili xərc amillərinin qiymətlərə təsiri neytrallaşdıqca, balanslaşdırıcı rol oynayan amonetar amillərin inflyasiyaya azaldıcı təsirləri güclənəcəkdir

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 oktyabr tarixli 2965 nömrəli Sərəncamının icrası ilə əlaqədar minimum aylıq əməkhaqqının məbləği 2022-ci il yanvarın 1-dən 300 manat müəyyən edilsin. 2021-ci ilin yanvar-noyabr aylarında muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı 2020-ci ilin müvafiq dövrünə nisbətən 2,9 faiz artaraq 724,1 manat təşkil etmişdir.1 yanvar 2021-ci il tarixindən. İcbari tibbi sığortanın tətbiqinə başlanıldı. Qeyri-dövlət və qeyri-neft sektorunda çalışan işəgötürən və işçilərdən aylıq hesablanmış əməyin ödənişi fondunun 8,000 manata qədər olan hissəsindən ödənilən sığorta haqqının məbləğinə 2022-ci il yanvarın 1-dək 50 faiz güzəşt tətbiq edilir.

## 3. Qrupun əməliyyat mühiti (davamı)

Bu o deməkdir ki, 2022-ci il yanvarın 1-dək qeyri-dövlət və qeyri-neft sektorunda çalışan işəgötürən və işçilərdən aylıq hesablanmış əməyin ödənişi fondunun 8,000 manata qədər olan hissəsindən 1%, 8,000 manatdan yuxarı olan hissəsindən isə 0.5% miqdarında icbari tibbi sığorta haqqı tutulacaq.

2022-ci ildən etibarən isə sözügedən sektor üzrə işəgötürən və işçilərdən aylıq hesablanmış əməyin ödənişi fondunun 8,000 manata qədər olan hissəsindən 2% miqdarında icbari tibbi sığorta haqqının tutulması müəyyən olunub.

## 4. Əsas mühasibat uçotu prinsiplərinin xülasəsi

Qrupun hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları Mühasibat Uçotunun Beynəlxalq Standartları Komitəsinin (“MUBSK”) buraxdığı Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (“MHBS”) uyğun olaraq hazırlanmışdır.

### Fasiləsizlik prinsipi

Konsolidasiya edilmiş maliyyə hesabatları Qrupun yaxın gələcəkdə fəaliyyətini normal şərtlər altında davam etdirəcəyi ehtimalı nəzərə alınaraq hazırlanmışdır.

Rəhbərlik hesab edir ki, Qrup yaxın gələcəkdə ləğv olunacağına, habelə fəaliyyətini dayandırmağa və ya Azərbaycan Respublikasının Qanunları və ya normativ aktları əsasında kreditorlara qarşı müdafiə axtarışına istək və ya ehtiyac olmadan fəaliyyətini davam etdirəcək.

Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyətin gedişində Qrupun aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olduğu fərziyyəsi ilə hesabatlarda əks etdirilmişdir. Bəzi fərdi maliyyə hesabatları standartları, Rəhbərlik tərəfindən Qrupun davamlılıq prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri nəzərə alınmalı olan müəyyən məsələləri və daimilik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Davamlılıq prinsipi təxminlərin Rəhbərlik tərəfindən dəyərləndirilməsi zamanı naməlum olan gələcək hadisələr və ya şərtlər üzrə müəyyən fərziyyələrin edilməsi vacibdir.

### Maliyyə hesabatlarının hazırlanmasının əsası

Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasında tətbiq edilmiş əsas mühasibat uçotu prinsipləri aşağıda təqdim olunur. Həmin prinsiplər təqdim olunmuş bütün dövrlərə ardıcıl qaydada tətbiq edilmişdir. Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında bütün məbləğlər, başqa cür qeyd edilmədiyi halda, Azərbaycan Manatı (“AZN”) ilə təqdim edilir.

Konsolidasiya edilmiş maliyyə hesabatları ilkin dəyər metoduna əsasən tərtib edilmişdir.

## 4. Əsas mühasibat uçotu prinsiplərinin xülasəsi (davamı)

### Konsolidasiya prinsipi

Konsolidasiya edilmiş maliyyə hesabatları 31 dekabr 2021-ci il tarixinə Qrupun və onun törəmə müəssisinin konsolidasiya edilmiş maliyyə hesabatlarından ibarətdir.Törəmə müəssisələr Qrupun fəaliyyətindən fayda əldə etmək məqsədilə maliyyə və əməliyyat siyasətlərini idarə etməkdən ibarət nəzarəti olan və səsvermə hüquqlarının yarısından çox iştirak payına sahib olan bütün müəssisələrdir. Xüsusilə, Qrup investisiya obyektinə yalnız və yalnız o halda nəzarət edir ki, Qrup:

- investisiya obyekti üzrə nəzarət hüququna malik olsun (yəni mövcud olan səsvermə hüquqları hazırda investisiya obyektinin müvafiq fəaliyyətini idarə etmək imkanını versin);
- investisiya obyektində iştirakla bağlı risk və ya dəyişən gəlirlər əldə etmək hüququna malik olsun;
- gəlirlərə təsir göstərmək üçün investisiya obyekti üzrə nəzarəti istifadə etmək imkanına malik olsun.

Qrup investisiya obyekti üzrə nəzarət hüququnun olub-olmadığını o halda yenidən qiymətləndirir ki, fakt və şəraitlər üç nəzarət elementindən bir və ya bir neçəsində dəyişiklik əlamətinin olduğunu göstərsin. Törəmə müəssisənin konsolidasiyası Qrup törəmə müəssisə üzərində nəzarət əldə edəndə başlayır və Qrup törəmə müəssisə üzrə nəzarəti itirəndə başa çatır. Törəmə müəssisənin il ərzində əldə edilmiş və ya silinmiş aktivləri, öhdəlikləri, gəlir və xərcləri Qrupun onun üzərində nəzarəti əldə etdiyi tarixdən başlayaraq və həmin nəzarətin başa çatdığı tarixə qədər konsolidasiya edilmiş maliyyə hesabatlarına daxil edilir.

Lazım olduqda, istifadə edilən uçot siyasətinin Qrupun qəbul etdiyi uçot siyasətinə uyğun olması üçün törəmə müəssisələrin maliyyə hesabatlarına düzəlişlər edilir. Qrupun üzvləri arasında olan əməliyyatlarla əlaqədar bütün qrupdaxili aktivlər və öhdəliklər, kapital, gəlir, xərc və pul vəsaitlərinin hərəkəti konsolidasiya zamanı bütünlüklə silinir. Törəmə müəssisənin mülkiyyət payında nəzarətin itirilməsi ilə nəticələnməyən dəyişiklik kapital əməliyyatı kimi uçota alınır.

Qrup törəmə müəssisə üzərində nəzarət hüququnu itirirsə, bu zaman o, əlaqəli aktivlərin (o cümlədən qudvilin), öhdəliklərin, qeyri-nəzarət iştirak payının və kapitalın digər komponentlərinin tanınmasını dayandırır; nəticədə əldə edilən gəlir və ya zərər mənfəət və ya zərərdə tanınır. Qalan investisiyalar ədalətli dəyəri ilə tanınır.

### Cari və uzunmüddətli təsnifat

Qrup konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda aktiv və öhdəlikləri cari/uzunmüddətli təsnifat əsasında təqdim edir. Aktiv aşağıdakı hallarda cari aktiv kimi təsnif edilir:

- Normal əməliyyat dövründə satılması gözlənilir və ya satılması və ya istifadəsi planlaşdırılır;
- Əsasən ticarət məqsədləri üçün saxlanılır;
- Hesabat tarixindən on iki ay sonra reallaşdırılması gözlənilir; və ya
- Hesabat tarixindən sonra ən azı on iki ay ərzində öhdəliyi ödəmək üçün mübadiləsi və ya istifadəsi məhdudlaşdırıldığı hallar istisna olmaqla pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentidir.

Bütün digər aktivlər uzunmüddətli aktivlər kimi təsnif edilir.

## 4. Əsas mühasibat uçotu prinsiplərinin xülasəsi (davamı)

### Cari və uzunmüddətli təsnifat (davamı)

Öhdəlik aşağıdakı hallarda cari öhdəlik kimi təsnif edilir:

- Normal əməliyyat dövründə ödənilməsi gözlənilir;
- Əsasən ticarət məqsədləri üçün saxlanılır;
- Hesabat tarixindən sonra on iki ay ərzində ödənilməlidir; və ya
- Hesabat tarixindən sonra ən azından on iki ay ərzində öhdəliyin ödənilməsini təxirə salmaq üçün şərtsiz hüquq yoxdur.

Qrup bütün digər öhdəlikləri uzunmüddətli öhdəliklər kimi təsnif edir.

Təxirə salınmış mənfəət vergisi aktivləri və öhdəlikləri uzunmüddətli aktiv və öhdəliklər kimi təsnif edilir.

### Müəssisələrin birləşməsi

Müəssisələrin birləşməsi alış metodunu tətbiq etməklə uçota alınır. Alışın dəyəri alış tarixində ədalətli dəyərlə ölçülən köçürülmüş ödəniş məbləğinin və əldə edilən müəssisədə qeyri-nəzarət payının cəmi kimi ölçülür. Müəssisələrin birləşməsi üçün alıcı əldə edilən müəssisədə qeyri-nəzarət iştirak payını ədalətli dəyərlə, yaxud da əldə edilən müəssisənin müəyyən edilə bilən xalis aktivlərindəki payına proporsional olaraq qiymətləndirir. Çəkilmiş alış məsrəfləri xərclərə silinir və inzibati xərclərə daxil edilir. Qrup hər hansı müəssisəni satın aldıqda, münasib təsnifləşdirmə və təyin etmə məqsədilə maliyyə aktivlərini və öhdəliklərini müqavilə şərtləri, iqtisadi şərait, alış tarixində mövcud olan digər uyğun şərtlər əsasında qiymətləndirməlidir. Buna əldə edilən müəssisə tərəfindən əlaqədar törəmə alətlərin əsas müqavilədə ayrılması da aid edilir.

Müəssisələrin mərhələlərlə birləşdirilməsi zamanı alıcı müəssisənin satın alınan müəssisədə əvvəllər mövcud olan iştirak payı alış tarixində ədalətli dəyərlə yenidən ölçülür və nəticədə yaranan gəlir və ya zərər müvafiq olaraq mənfəət və ya zərərdə tanınır.

*Ümumi nəzarət altında olan müəssisələrlə birləşmələr*

Ümumi nəzarət altında olan müəssisələrlə birləşmələrə Qrup mühasibat uçotunun alış metodunu tətbiq edir.

### Gəlirlər

15 saylı MHBS, müştərilərlə bağlanmış müqavilələr üzrə yaranan gəlirləri hesablamaq üçün beş mərhələli bir model təqdim edir. Gəlirlər, 15 saylı MHBS-yə uyğun olaraq Qrupun mal və xidmətlərin müştəriyə ötürülməsi hüququ üzrə ehtimalı əks etdirən məbləğdə tanınır. Müştərilərlə olan müqavilələrdən əldə edilən gəlirlər, Qrupun müştəriyə vəd edilmiş mal və ya xidmətin ötürülməsi yolu ilə icra öhdəliyini yerinə yetirdikdə tanınır. Mal və ya xidmət, müştəri həmin mal və ya xidmətin nəzarəti hüququna malik olduğu zaman ötürülür. Gəlirlər ƏDV və hər hansı endirimlər üzrə göstərilir.

## 4. Əsas mühasibat uçotu prinsiplərinin xülasəsi (davamı)

### Gəlirlər (davamı)

Qrup müştəriyə vəd edilmiş mal və ya xidmətin müddət ərzində ötürülməsi, eyni zamanda müqavilə üzrə icra öhdəyini müddət ərzində yerinə yetirilməsi və gəlirin müddət ərində tanınması aşağıdakı meyarlardan biri yerinə yetirildiyi təqdirdə həyata keçirir:

- Qrupun icra öhdəliyinin yerinə yetirilməsi ilə müştərinin faydalanması eyni zamanda baş verdikdə;
- Qrup fəaliyyəti nəticəsində müştərinin nəzarəti altında olan hər hansı bir aktivi yaradır və ya təkmilləşdirir;
- Qrupun fəaliyyəti Qrupa alternativ istifadəsi olan bir aktiv yaratmır və bu günə qədər fəaliyyətinə görə ödəmə hüququna malikdir.

Müddət ərzində yerinə yetirilən hər bir icra öhdəliyi üçün gəlir həmin icra öhdəliyinin tam yerinə yetirilməsi istiqamətində irəliləyişin ölçülməsi yolu ilə tanınmalıdır.

*Digər gəlirlər*

Əsas fəaliyyət növləri olmayan əməliyyatlardan digər gəlirlərə daxil olunur. Digər gəlirlər hesablama metodu əsasında uçota alınır.

### Maliyyə alətləri – əsas qiymətləndirmə üsulları

Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya olunmuş dəyərdə qeydə alınır. Həmin qiymətləndirmə üsulları aşağıda əks etdirilir.

Ədalətli dəyər ölçmə tarixində bazar iştirakçıları arasında aparılan müntəzəm əməliyyatlar zamanı aktivin satılmasından alına bilən və ya öhdəliyin köçürülməsinə görə ödənilə bilən məbləğdir. Ədalətli dəyər ölçülərkən aktivin satılması və ya öhdəliyin köçürülməsi əməliyyatının aşağıdakı yerlərdən birində aparılması ehtimal edilir:

- aktivin və ya öhdəliyin əsas bazarı; və ya
- əsas bazar olmayanda, aktivin və ya öhdəliyin ən əlverişli bazarı.

Qrupun əsas və ya ən əlverişli bazara çıxışı olmalıdır. Aktivin və ya öhdəliyin ədalətli dəyəri bazar iştirakçıları aktivi və ya öhdəliyi qiymətləndirərkən istifadə etdiyi fərziyyələri istifadə etməklə ölçülür və ehtimal edilir ki, bazar iştirakçıları bu zaman öz hərəkətlərində ən yaxşı iqtisadi mənafelərini güdürlər. Qeyri-maliyyə aktivinin ədalətli dəyəri ölçülərkən bazar iştirakçısının, aktivi maksimal və ən yaxşı şəkildə istifadə etməklə və ya həmin aktivi maksimal və ən yaxşı şəkildə istifadə edəcək digər bazar iştirakçısına satmaqla, iqtisadi fayda əldə etmək qabiliyyəti nəzərə alınır.

Qrup mövcud şəraitdə münasib olan və ədalətli dəyəri ölçmək üçün kifayət qədər məlumatları olan, müvafiq bazar məlumatlarını maksimal istifadə edən və müşahidə edilməyən məlumatların istifadəsini minimuma endirən qiymətləndirmə üsullarını istifadə edir.

Konsolidasiya edilmiş maliyyə hesabatlarında ədalətli dəyəri ölçülən və ya təqdim edilən bütün aktivlər və öhdəliklər ədalətli dəyərin ölçülməsi üçün ümumiyyətlə əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında ədalətli dəyər iyerarxiyasının daxilində aşağıda təsvir olunan kateqoriyalara bölünür:

## 4. Əsas mühasibat uçotu prinsiplərinin xülasəsi (davamı)

### Maliyyə alətləri – əsas qiymətləndirmə üsulları (davamı)

- Səviyyə 1 – Oxşar aktivlər və ya öhdəliklər üçün fəal bazarlarda kvotasiya edilmiş (təshih edilməmiş) qiymətləri mövcud olanlar.
- Səviyyə 2 – Ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları birbaşa və ya dolayısı ilə müşahidə edilən qiymətləndirmə üsulları.
- Səviyyə 3 – Ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları müşahidə edilməyən qiymətləndirmə üsulları.

Konsolidasiya edilmiş maliyyə hesabatlarında dövri şəkildə tanınan aktivlər və öhdəliklər üçün Qrup hər hesabat dövrünün sonunda kateqoriyalara bölməni yenidən qiymətləndirərək iyerarxiyanın daxilində Səviyyələr arasında köçürmələrin baş verib-vermədiyini müəyyən edir (ədalətli dəyərin ölçülməsi üçün ümumiyyətlə əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında).

*İlkin dəyər* alış tarixinə aktivi almaq üçün ödənilmiş pul vəsaitləri və ya pul vəsaitləri ekvivalentlərinin məbləğini və yaxud verilmiş digər resursların ədalətli dəyərini əks etdirir və əməliyyat xərclərini ehtiva edir. İlkin dəyərlə qiymətləndirmə yalnız bazar qiymətləri olmayan və ədalətli dəyəri etibarlı şəkildə ölçülə bilməyən pay alətlərindəki investisiyalara tətbiq edilir.

*Əməliyyat xərcləri* əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə bağlıdır. Əlavə xərclər əməliyyatın həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri əməliyyat xərclərinə daxil edilmir.

*Amortizasiya olunmuş maya dəyəri* əsas məbləğin qaytarılmasını çıxmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə gözlənilən kredit zərərləri (GKZ) üçün ehtiyatı çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya olunmuş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin balans dəyərinə daxil edilir.

*Effektiv faiz metodu* maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində bölüşdürülməsi metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər xaric olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədi.

Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilən faiz dərəcəsidir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Diskont dəyərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir. İlkin tanınma zamanı alınmış və ya yaranmış kredit üzrə dəyərsizləşmiş aktivlər üçün effektiv faiz dərəcəsi kredit riski nəzərə alınaraq uyğunlaşdırılır, yəni müqavilə üzrə ödənişlər deyil, ilkin tanınmada gözlənilən pul vəsaitlərinin hərəkətinə əsasən hesablanır.

## 4. Əsas mühasibat uçotu prinsiplərinin xülasəsi (davamı)

### Maliyyə aktivləri

### İlkin tanınma və ölçmə

Maliyyə aktivləri ilkin tanınmada sonradan amortizasiya hesablanmış dəyərlə, digər ümumi gəlir (DMG) vasitəsilə ədalətli dəyərlə tanınan aktivlər və ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən alətlər kimi təsnifləşdirilir.

İlkin tanınmada maliyyə aktivlərinin təsnifatı maliyyə aktivləri üzrə müqavilə ilə nəzərdə tutulmuş pul vəsaitlərinin hərəkətinin xüsusiyyətlərindən və Qrupun bunları idarə etmək üçün seçdiyi biznes modeldən asılıdır. Əhəmiyyətli maliyyələşdirmə komponentinin daxil olmadığı və ya Qrupun praktik vasitənin tətbiq etdiyi ticarət debitor borcları istisna olmaqla Qrup ilk öncə maliyyə aktivlərini ədalətli dəyərlə ölçür və ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən alətlər kimi tanınan aktivlər üçün əməliyyat xərclərini əlavə edir. Əhəmiyyətli maliyyələşdirmə komponentinin daxil olmadığı və ya Qrupun praktik vasitənin tətbiq etdiyi ticarət debitor borcları 15 saylı MHBS əsasında müəyyənləşdirilən əməliyyat qiyməti ilə ölçülür.

Maliyyə aktivinin amortizasiya dəyəri ilə və ya DMG vasitəsilə ədalətli dəyərlə təsnifləşdirilməsi və ölçülməsi üçün qalan əsas məbləğ üzrə yalnız əsas məbləğin və faizlərin ödənilməsini ("YƏMFÖ") təşkil edən pul vəsaitlərinin hərəkəti yaradılmalıdır. Bu qiymətləndirməyə "YƏMFÖ testi" deyilir və bu, hər bir alət üzrə ayrıca aparılır.

Qrupun maliyyə aktivlərini idarə etmək üçün seçdiyi biznes modeli, onun pul vəsaitlərinin hərəkətini yaratmaq məqsədilə maliyyə aktivlərinin idarəedilməsi metodunu təsvir edir. Başqa sözlə, Qrupun biznes modeli pul vəsaitlərinin hərəkətinin müqavilədən, maliyyə aktivlərinin satışından və ya onların hər ikisindən yaranacağını müəyyən edir.

Qanunvericiliklə və ya bazar razılaşmaları ilə ümumi şəkildə müəyyən edilmiş müddət ərzində aktivlərin çatdırılmasını tələb edən maliyyə aktivlərinin alınması və ya satılması əməliyyatları alqı-satqı tarixində, yəni Qrup aktivi almaq və ya satmaq öhdəliyini üzərinə götürdüyü tarixdə tanınır.

### Sonrakı ölçülmə

Sonrakı ölçülmə məqsədilə maliyyə aktivləri dörd kateqoriyaya təsnifləşdirilir:

- Amortizasiya olunmuş dəyərlə maliyyə aktivləri (borc alətləri);

Məcmu gəlirləri və zərərləri yenidən bölüşdürməklə DMG vasitəsilə ədalətli dəyərlə maliyyə aktivləri (borc alətləri);

- Uçotdan çıxarılanda məcmu gəlirləri və zərərləri yenidən bölüşdürmədən DMG vasitəsilə ədalətli dəyərlə maliyyə aktivləri (kapital alətləri);
- Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən maliyyə aktivləri.

## 4. Əsas mühasibat uçotu prinsiplərinin xülasəsi (davamı)

### Amortizasiya olunmuş dəyərlə maliyyə aktivləri (borc alətləri)

Bu kateqoriya Qrupa daha uyğundur.
Aşağıdakı hər iki şərt yerinə yetirilərsə, Qrup maliyyə aktivini amortizasiya olunmuş dəyərlə ölçməlidir:

- Maliyyə aktivi biznes modeli çərçivəsində və onlarla bağlı müqavilə üzrə pul vəsaitlərini toplamaq məqsədilə saxlanılır; və
- Maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən olunmuş tarixlərdə qalan əsas məbləğ üzrə əsas vəsaitlərdən və faizdən ibarət olan pul vəsaitlərinin yaranmasına səbəb olur.

Amortizasiya olunmuş dəyərlə maliyyə aktivləri sonradan Effektiv Faiz Dərəcəsi (EFD) metodundan istifadə etməklə ölçülür və dəyərsizləşmə hesablanır. Gəlir və zərərlər mənfəət və ya zərərdə aktiv uçotdan çıxarılanda, dəyişiklik ediləndə və ya dəyərsizləşəndə tanınır.

Qrupun bütün maliyyə aktivləri amortizasiya olunmuş dəyərlə ölçülür.

Aşağıdakı hər iki şərt yerinə yetirilərsə, Qrup borc alətlərini DMG ilə ədalətli dəyərlə ölçməlidir:

- Maliyyə aktivi biznes modeli çərçivəsində və onlarla bağlı həm müqavilə üzrə pul vəsaitlərini toplamaq, həm də satılmaq məqsədilə saxlanılır; və
- Maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən olunmuş tarixlərdə qalan əsas məbləğ üzrə əsas vəsaitlərdən və faizdən ibarət olan pul vəsaitlərinin yaranmasına səbəb olur.

DMG ilə ədalətli dəyərlə borc alətləri üçün faiz gəliri, xarici valyutanın yenidən qiymətləndirilməsi və dəyərsizləşmə zərərləri və ya qaytarmalar konsolidasiya edilmiş mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda tanınır və amortizasiya hesablanmış dəyərlə maliyyə aktivləri ilə eyni qaydada hesablanır. Ədalətli dəyərdə qalan dəyişikliklər DMG ilə tanınır. Uçotdan çıxarılanda DMG-də tanınmış məcmu ədalətli dəyərdə dəyişiklik mənfəət və ya zərərə yenidən bölüşdürülür.

Qrupun DMG ilə ədalətli dəyərlə borc alətləri mövcud deyil.

*DMG ilə ədalətli dəyərlə maliyyə aktivləri (kapital alətləri)*

İlkin tanınmada Qrup 32 saylı "Maliyyə alətləri: Təqdimatı" adlı MUBS əsasında kapital tərifinə uyğun olan bəzi kapital investisiyalarını ticarət üçün saxlanılan alətlər kimi deyil, kapital alətləri kimi təsnif etmək üçün yekun seçim edə bilər. Belə təsnifat alətlər üzrə fərdi şəkildə müəyyən edilir.

Bu kapital alətləri üzrə gəlir və zərərlər heç zaman mənfəət və ya zərərə aid edilmir. Ödəmə hüququ müəyyən ediləndə, dividendlər mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda digər gəlir kimi tanınır. Lakin Qrup alətin dəyərinin bir hissəsinin qaytarılması olan belə daxilolmalardan faydalanırsa, belə gəlirlər DMG-də tanınır. DMG vasitəsilə ədalətli dəyərlə kapital alətləri üzrə dəyərsizləşmənin qiymətləndirilməsi aparılmır.

## 4. Əsas mühasibat uçotu prinsiplərinin xülasəsi (davamı)

### Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri

Qrupun saxladığı ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivlərinə ticarət üçün saxlanılan maliyyə aktivləri, ilkin tanınmada ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri və ya ədalətli dəyərlə ölçülməsi mütləq olan aktivlər daxildir.
Yaxın zamanda satış və ya yenidən alış məqsədi ilə əldə olunarsa, maliyyə aktivləri ticarət üçün saxlanılan aktivlər kimi təsnif olunur. Effektiv hecinq alətləri kimi təyin olunmayan törəmə alətlər, o cümlədən ayrılmış əlaqədar törəmə alətlər də satış üçün saxlanılan aktivlər kimi təsnif olunur. Yalnız əsas məbləğ və faizlərin ödənilməsini təşkil etməyən pul vəsaitlərinin hərəkətini yaradan maliyyə aktivləri, biznes modeldən asılı olmayaraq, mənfəət və ya zərərdə ədalətli dəyərlə təsnifləşdirilir. Borc alətlərinin amortizasiya hesablanmış dəyərlə və ya DMG vasitəsilə ədalətli dəyərlə təsnifləşdirilməsi üçün yuxarıda təsvir edilən meyarlara baxmayaraq borc alətləri, bununla uçot uyğunsuzluğu aradan qaldırılar və ya əhəmiyyətli dərəcədə azaldılarsa, ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri kimi təyin edilə bilər.

Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda ədalətli dəyərlə tanınır, ədalətli dəyərdə xalis dəyişikliklər isə konsolidasiya edilmiş mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda tanınır.

Hibrid müqavilənin tərkib hissəsi olan, maliyyə öhdəliyini və ya qeyri-maliyyə əsas müqaviləni ehtiva etdirən asılı törəmə alət, aşağıdakı hallarda əsas müqavilədən ayrılır və ayrıca alət kimi uçota alınır: iqtisadi xüsusiyyətlər və risklər əsas müqavilə ilə sıx əlaqəli deyildir, asılı törəmə alətlə eyni şərtləri olan ayrıca alət törəmə alət anlayışına uyğundur və hibrid müqavilə ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilməyən alət kimi ölçülmür. Asılı törəmə alətlər ədalətli dəyərlə ölçülür, ədalətli dəyərdə dəyişikliklər mənfəət və ya zərərdə tanınır. Müqavilə əsasında tələb olunacaq pul vəsaitlərinin hərəkətini əhəmiyyətli dərəcədə dəyişən müqavilənin şərtlərində dəyişiklik olanda və ya maliyyə aktivi ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən aktivlər kateqoriyasından xaric yenidən təsnifləşdiriləndə yenidən qiymətləndirmə aparılır.

Maliyyə aktivinə dair əsas müqaviləni ehtiva etdirən hibrid müqavilə daxilində asılı törəmə alət ayrıca uçota alınmır. Maliyyə aktivi, asılı törəmə alətlə birlikdə, tam şəkildə ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən maliyyə aktivi kimi təsnifləşdirilməlidir.

### Uçotdan çıxarma

Maliyyə aktivi (və ya müvafiq hallarda maliyyə aktivinin bir hissəsi və ya analoji maliyyə aktivləri qrupunun bir hissəsi) aşağıdakı hallarda uçotdan (yəni Qrupun konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatından) çıxarılır:

- Aktivdən pul vəsaitlərini əldə etmək hüquqlarının müddəti başa çatmışdır;

Qrup özünün aktivdən pul vəsaitlərini almaq hüquqlarını üçüncü tərəfə köçürmüş və ya üzərinə aktivdən pul vəsaitlərini "tranzit" razılaşması əsasında tam məbləğdə və çox yubanmadan ödəmək öhdəliyini götürmüşdür; və ya Qrup: (a) aktiv üzrə risk və səmərələrin böyük hissəsini köçürmüş; (b) aktiv üzrə risk və səmərələrin böyük hissəsini nə köçürmüş, nə də özündə saxlamış, lakin aktiv üzrə nəzarət hüququnu köçürmüşdür.

## 4. Əsas mühasibat uçotu prinsiplərinin xülasəsi (davamı)

### Uçotdan çıxarma (davamı)

Qrup aktivdən pul vəsaitlərini almaq hüququnu köçürdükdə və ya "tranzit" razılaşmasına qoşulduqda, mülkiyyət hüququ ilə bağlı risk və faydaları saxlayıb-saxlamadığını və nə dərəcədə saxladığını qiymətləndirir. Qrup nə aktiv üzrə risk və səmərələrin böyük hissəsini köçürmüş, nə də özündə saxlamışdırsa, nə də aktiv üzrə nəzarət hüququnu köçürmüşdürsə, aktiv Qrupun həmin aktivdə davam edən iştirakı həddində əks etdirilir. Bu halda Qrup əlaqəli öhdəliyi də tanıyır. Köçürülmüş aktiv və əlaqəli öhdəlik Qrupun saxladığı hüquq və öhdəlikləri əks etdirən əsaslarla ölçülür
Aktivdə iştirakın köçürülmüş aktiv üzrə zəmanət formasında davam etməsi aktivin ilkin balans dəyəri və Qrupdan tələb oluna biləcək maksimal ödəniş məbləğindən daha az olanı ilə ölçülür.

### Maliyyə aktivlərinin dəyərsizləşməsi

Qrup ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunmayan bütün borc alətləri üçün gözlənilən kredit zərərləri (GKZ) üçün ehtiyatı tanıyır. GKZ müqaviləyə uyğun olaraq ödəniləcək müqavilədə nəzərdə tutulan pul vəsailətinin hərəkəti ilə Qrupun alınmasını gözlədiyi bütün pul vəsaitlərinin hərəkəti arasında fərqi ilkin effektiv faiz dərəcəsinə yaxın dərəcə ilə diskontlaşdırmaqla müəyyən edilir.

GKZ iki mərhələdə müəyyən edilir. İlkin tanınmadan sonra kredit riski əhəmiyyətli artmayan kredit öhdəlikləri üçün GKZ növbəti 12 aylıq dövr ərzində mümkün olan defolt hadisəsindən irəli gələn kredit zərərləri üçün ayrılır (12 aylıq GKZ). İlkin tanınmadan sonra kredit riski əhəmiyyətli artan kredit öhdəlikləri üzrə kredit ehtiyatı aktivin qalan müddəti ərzində yaranması gözlənilən kredit zərərlərinə (aktivin müddəti ərzində gözlənilən kredit zərəri və ya AMəGKZ) əsaslanır.

Ticarət debitor borcları üçün Qrup GKZ-nin hesablanmasında sadələşdirilmiş yanaşma tətbiq edir.
Beləliklə, Qrup kredit riskində dəyişiklikləri izləmir, əvəzinə hər hesabat tarixində AMəGKZ əsasında kredit zərərini tanıyır.

DMG ilə ədalətli dəyərlə borc alətləri üçün Qrup aşağı kredit riskinin sadələşdirilməsini tətbiq edir. Hər bir hesabat tarixində Qrup lazımsız xərc və ya səy sərf etmədən əldə edilə bilən bütün əsaslı və təsdiqlənən məlumatlardan istifadə edərək borc alətinin aşağı kredit riskinə məruz qalıb-qalmadığını qiymətləndirir. Belə qiymətləndirmə apararkən Qrup borc alətinin daxili kredit reytinqini yenidən qiymətləndirir. Bundan əlavə, Qrup müqavilə ödənişləri 90 gündən çox gecikdiriləndə kredit riskində əhəmiyyətli artımın mövcud olduğunu hesab edir.

Müqavilə üzrə qalan məbləğlərin tam şəkildə Qrupun saxladığı hər hansı kredit təminatları nəzərə alındıqdan əvvəl əldə edilə bilməsi ehtimalının zəif olduğuna işarə edən daxili və ya xarici məlumat mövcud olduğu təqdirdə maliyyə aktivi üzrə defoltun baş verdiyi hesab edilə bilər. Maliyyə aktivi müqavilə ilə nəzərdə tutulmuş pul vəsaitlərinin hərəkətinin bərpa ediləcəyi əsaslı olaraq gözlənilməyəndə silinir.

### Maliyyə öhdəlikləri

### İlkin tanınma və ölçmə

Maliyyə öhdəlikləri ilkin tanınma zamanı, müvafiq olaraq, ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri, kreditlər və borc öhdəlikləri və ya effektiv hecinqdə hecinq aləti kimi təyin olunmuş törəmə alətləri kimi təsnif edilir.

Maliyyə öhdəlikləri ilkin olaraq ədalətli dəyərlə tanınır və kreditlər, borclar və kreditor borcları halında birbaşa aid edilən əməliyyat xərcləri çıxılır. Qrupun maliyyə öhdəliklərinə ticarət və digər kreditor borcları, müddətli borclar daxildir.

## 4. Əsas mühasibat uçotu prinsiplərinin xülasəsi (davamı)

### Sonrakı ölçmə

Maliyyə öhdəliklərinin ölçülməsi onların aşağıda göstərilən təsnifatından asılıdır:

Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri

Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri və ticarət üçün saxlanılan maliyyə öhdəlikləri və ilkin tanınmada Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri kimi təyin edilmiş maliyyə öhdəlikləri daxildir.

Maliyyə öhdəlikləri yaxın zamanda geri alınmaq məqsədilə qəbul edilirsə ticarət üçün saxlanılan öhdəliklər kimi təsnifləşdirilir. Bu kateqoriyaya eyni zamanda 9 saylı MHBS-də müəyyən edildiyi qaydada hecinq münasibətlərində hecinq aləti kimi təyin olunmayan törəmə maliyyə alətləri daxildir. Ayrılmış əlaqəli törəmə alətlər də effektiv hecinq aləti kimi təyin edilmədiyi hallarda ticarət üçün saxlanılan alətlər kimi təsnifləşdirilir.

Ticarət üçün saxlanılan öhdəliklər üzrə gəlir və ya zərərlər mənfəət və ya zərər haqqında hesabatda tanınır.

İlkin tanınma tarixində ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri kimi tanınmış öhdəliklər ilkin tanınma tarixində və yalnız 9 saylı MHBS-də nəzərdə tutulan meyar qarşılananda təyin olunur. Qrup hər hansı maliyyə öhdəliyini ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan öhdəlik kimi təyin etməmişdir.

### Kreditlər və borc öhdəlikləri

Bu kateqoriya Qrup üçün daha uyğundur. İlkin tanınmadan sonra faiz hesablanan kreditlər və borc öhdəlikləri daha sonra effektiv faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya hesablanmış dəyərlə qiymətləndirilir. Gəlirlər və zərərlər mənfəət və ya zərərdə öhdəliklərin tanınması dayandırıldıqda, eləcə də amortizasiya prosesi vasitəsilə əks etdirilir. Amortizasiya hesablanmış dəyər satınalma zamanı tətbiq edilən endirimi və ya əlavə qiyməti və effektiv faiz dərəcəsinin ayrılmaz hissəsi olan haqq və xərcləri nəzərə almaqla hesablanır. EFD-nin amortizasiyası mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda maliyyə xərclərinə daxil edilir. Bu kateqoriya faiz hesablanan kreditlərə və borc öhdəliklərinə tətbiq edilir.

### Tanınmanın dayandırılması

Maliyyə öhdəliyinin tanınması bu halda dayandırılır ki, həmin öhdəlik ya dayandırılmış, ya ləğv olunmuş, ya da müddəti bitmiş olsun. Əgər mövcud maliyyə öhdəliyi həmin kreditor qarşısında fərqli şərtlərlə başqa öhdəliklə əvəz edilərsə və ya mövcud öhdəliyin şərtləri əhəmiyyətli dərəcədə dəyişdirilərsə, bu cür əvəzedilmə və ya dəyişiklik ilkin öhdəliyin tanınmasının dayandırılması və yeni öhdəliyin tanınması kimi qəbul edilir və müvafiq balans dəyərlərindəki fərq mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda öz əksini tapır.

### Maliyyə alətlərinin qarşılıqlı əvəzləşdirilməsi

Qrup maliyyə aktivləri və maliyyə öhdəliklərinin tanınmış məbləğlərini qarşılıqlı əvəz etmək üçün qanuni hüquqa malik olduğu və ya hesablaşmanı xalis əsasda həyata keçirmək, ya da eyni vaxtda aktivi reallaşdırmaq və öhdəliyi yerinə yetirmək niyyəti olduğu halda, qarşılıqlı əvəzləşdirir və konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda xalis məbləğ kimi təqdim edir.

### Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri

Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə kassada olan nağd pul, bank hesablarındakı tələb edilənədək əmanət və ilkin ödəmə müddəti üç ay və ya az olan digər qısamüddətli və yüksək likvidli investisiyalar daxildir.

## 4. Əsas mühasibat uçotu prinsiplərinin xülasəsi (davamı)

### ƏDV depozit hesabı

Əlavə Dəyər Vergisi ("ƏDV") depozit hesabı sistemi Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən 2008-ci ildə tətbiq edilmişdir. 01 yanvar 2008-ci il tarixindən Vergi Məcəlləsinə edilən dəyişikliklər əsasında ƏDV-nin geri qaytarılma məbləği vergi ödəyicisinin ƏDV depozit hesabına təqdim edilmiş ƏDV hesab-fakturalarına uyğun olaraq həyata keçirilən əməliyyatlar çərçivəsində ödənilmiş vergi məbləği hesab olunur.

Bu moduldan istifadə edərək vergi ödəyicisi ƏDV hesab-fakturalarında göstərilən ƏDV məbləğini başqa vergi ödəyicisinin ƏDV depozit hesabına ödəyir. Eyni zamanda, gömrük komitəsinə ödənilməli olan bütün vergi növləri və idxal əməliyyatları üzrə ƏDV üzrə dövlət büdcəsinə vergi öhdəlikləri vergi ödəyiciləri tərəfindən ƏDV depozit hesabı vasitəsilə ödənilə bilər. Ödənilmiş məbləğlər haqqında məlumat Vergilər Nazirliyi tərəfindən Baş Dövlət Xəzinədarlığına ("DXA"), sonra isə Azərbaycan Respublikasının Mərkəzi Bankına ("ARMB") ötürülür. ARMB Baş Xəzinədarlığın verdiyi məlumatlara əsasən, müvafiq yerli xəzinə orqanlarına məbləğlərin dəyişdirilməsini təmin edir. Vergilər Nazirliyi vergi ödəyicisinin şəxsi sənədlərində göstərilən məlumatlarda göstərilən məbləğlərin daxil edilməsini təmin edir. Mövcud sistem Vergilər Nazirliyinin Avtomatlaşdırılmış Vergi Məlumat Sistemi ilə əlaqələndirilir. Eyni zamanda, DXA və ARMB ilə onlayn məlumat mübadiləsi təşkil edildi.

ƏDV depozit hesabının tətbiqi ödənişlərin və ƏDV-nin bərpa olunan məbləğlərinin vaxtında izlənilməsinə imkan verir. Vergi borcu olan vergi ödəyiciləri yalnız bu məbləğləri dövlət büdcəsinə köçürə bilərlər. Vergi ödəyiciləri banklara getmədən dövlət büdcəsinə, digər vergi ödəyicilərinin sub hesablarına və gömrük komitəsinə depozit hesabı vasitəsilə ödəniş edə bilərlər. Vergilər Nazirliyi xüsusi proqram təminatından istifadə edərək depozit hesabı vasitəsilə həyata keçirilən bütün əməliyyatları avtomatik idarə edir.

ƏDV depozit hesabındakı qalıqların istifadəsi məhduddur və yalnız ƏDV və digər tətbiq olunan vergilərlə əlaqəli əməliyyatlar üçün istifadə edilə bilər.

### Mal və material ehtiyatları

Mal və material ehtiyatları faktiki qiymət və ya daha aşağı olarsa xalis mümkün satış qiyməti ilə uçota alınır. İlkin dəyər FİFO (ilk giriş ilk çıxış) dəyər metodundan istifadə edilməklə müəyyənləşdirilir və buraya birbaşa satınalma xərcləri, istehsalat xərcləri, nəqliyyat və istehsal xərcləri daxil edilir. Ehtiyatlar əsasən FİFO xərc metodundan istifadə etməklə və ya daha aşağı olduqda xalis mümkün satış qiyməti ilə dəyərləndirilir

### Ticarət və digər debitor borcları

Ticarət və sair debitor borcları ilk öncə ədalətli dəyərlə tanınır və sonra effektiv faiz metodundan istifadə etməklə, gözlənilən kredit zərərləri üzrə ehtiyatı çıxaraq, amortizasiya hesablanmış dəyərlə ölçülür. Debitor borcları Qrupun müəyyən şərtsiz asılı olaraq ödəniş almaq hüququndan ibarətdir.

### Kreditor borcları

Kreditor borcları qarşı tərəfin müqavilə üzrə öz öhdəliklərini yerinə yetirməsi zamanı qeydə alınır. Kreditor borcları ilkin olaraq ədalətli dəyərdə uçota alınır və sonradan effektiv faiz metoduna əsasən amortizasiya olunmuş dəyərdə ölçülür.

### Borc vəsaitləri

Borc vəsaitlərinə rezident və qeyri-rezident banklar tərəfindən sabit ödəmə müddəti və sabit faiz dərəcələri ilə verilmiş kreditlər daxildir. Borc vəsaitlər amortizasiya olunmuş maya dəyərində qeydə alınır. İlkin qiymətləndirmədən sonra, borc vəsaitlər EFD tətbiq olunmaqla amortizasiya olunmuş dəyərdə göstərilir. Amortizasiya olunmuş dəyər EFD-in ayrılmaz tərkib hissəsi olan xərclər və vəsaitlər alınan zaman əldə olunan güzəştlər nəzərə alınmaqla hesablanır.

## 4. Əsas mühasibat uçotu prinsiplərinin xülasəsi (davamı)

### Borc qiymətli kağızları

Buraxılmış borc qiymətli kağızlarına istiqrazlar və Qrup tərəfindən yerləşdirilmiş borc iltizamları aiddir. Əgər Qrup öz borc qiymətli kağızını satın alırsa, bu öhdəlik maliyyə vəziyyəti haqqında hesabatından silinir və ödənilən vəsaitlə öhdəliyin qalıq dəyəri arasında olan fərq mənfəət və zərər hesablarında müvafiq olaraq öhdəliklərin vaxtından tez icra edilməsinin nəticəsi kimi təqdim edilir.

### Təxirə salınmış gəlir

Təxirə salınmış gəlir əvvəlcə öhdəlik kimi qeyd ediləcək, lakin zamanla və / və ya işin normal əməliyyatları nəticəsində gəlir əldə ediləcəyi bir əşyaya aiddir. Təxirə salınmış gəlir əvvəlcə alınan ödəmənin ədalətli dəyəri ilə birbaşa əlaqəli əməliyyat xərcləri ilə qeydə alınır.

### Əsas vəsaitlər

Əsas vəsaitlər ilkin olaraq alış dəyərində, o cümlədən aktivlərin yerinə çatdırılmasına və onların Qrupun rəhbərliyinin nəzərdə tutduğu tərzdə əməliyyat göstərməsi üçün lazımi vəziyyətə gətirilməsinə aid bütün birbaşa xərclərdə tanınmışdır.

### Əsas istismar və ya təmir xərcləri

Əsas istismar və ya təmir xərcləri əvəzləşdirilən aktiv və ya aktivin hissələri, yoxlama xərcləri və əsaslı təmir xərclərindən ibarətdir. Aktiv və ya aktivin bir hissəsi ayrıca olaraq amortizasiya olunduqda və cari olaraq silindikdə və ya əvəzləşdirildikdə və həmin aktivlə bağlı gələcək iqtisadi gəlirlərin Qrupa axını ehtimal olunduqda, xərclər kapitallaşdırıllır. Aktivin hissəsi bir komponent olaraq ayrıca nəzərə alınmadıqda, əvəvzləşdirmə dəyəri dərhal silinən əvəzləşdirilən aktivlərin qalıq dəyərini qiymətləndirmək üçün istifadə olunur. Əsas saxlama proqramları ilə bağlı təftiş xərcləri kapitallaşdırılır və növbəti yoxlama dövrü ərzində amortizasiya olunur. Bütün digər istismar xərcləri çəkilmiş xərclər kimi hesablanır.

### Yenidən qiymətləndirmə

Binalar və başa çatdırılmamış tikililər mütəmadi olaraq yenidən qiymətləndirilir. Yenidən qiymətləndirmənin tezliyi yenidən qiymətləndirilən binalar və başa çatdırılmamış tikililər üzrə ədalətli dəyərin dəyişməsindən asılıdır. Binalar və başa çatdırılmamış tikililər üzrə yenidən qiymətləndirmə artımı digər məcmu gəlir kimi tanınır, lakin bu artım əvvəl mənfəət və zərərdə tanınmış eyni aktivin yenidən qiymətləndirməsinin azalmasını əvəz etdiyi halda, artım mənfəət və zərərdə tanınır. Binalar və başa çatdırılmamış tikililər üzrə yenidən qiymətləndirmənin azalması mənfəət və zərərdə tanınır, lakin bu azalma əvvəl sair məcmu gəlir kimi tanınmış eyni aktivin yenidən qiymətləndirməsinin artmasını əvəz etdiyi halda, azalma digər məcmu gəlirdə tanınır.

### Əmlak, tikili və avadanlıqların faydalı istifadə ömrü

Rəhbərlik əmlak, tikili və avadanlıqların ehtimal olunan faydalı istifadə ömrünü və əlaqəli köhnəlmə xərclərini müəyyən edir. Bu ehtimal, Qrupun aktivlər üzrə təxmin etdiyi iqtisadi mənfəətlər üzrə proqnozlaşdırılan müddətə əsaslanır. Rəhbərlik köhnəlmə xərclərini, istifadə müddətinin, əvvəlki ehtimal olunan müddətdən daha az olduğu hallarda artırır və ya köhnəlmiş aktivləri tərk edilmiş və ya satılmışsa, bu aktivləri texniki olaraq qismən və ya bütünlüklə uçotdan silinir. Faydalı istifadə müddəti ən azı hər hesabat tarixində nəzərdən keçirilir.

## 4. Əsas mühasibat uçotu prinsiplərinin xülasəsi (davamı)

### Köhnəlmə

Köhnəlmə ayrı-ayrı aktivlərin hesablanmış faydalı istifadə müddətləri üzrə düz xətt prinsipi əsasında mənfəət və ya zərərə aid edilir. Amortizasiya aktiv əldə edildiyi tarixdən yaxud, daxili qaydada inşa edilən aktivlər halında, aktiv tam istifadə üçün hazır olduğu tarixdən etibarən başlanır. Torpaq üzrə köhnəlmə hesablanmır. Təxmin edilən faydalı istifadə müddətləri aşağıdakı kimidir:

| | 2021 | 2020 |
|---|---|---|
| Bina, tikili və qurğular | 2% | 2% |
| Maşın və avadanlıqlar | 10% | 10% |
| Nəqliyyat vasitələri | 10% | 10% |

### Mənfəət vergisi

Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında mənfəət vergisi hesabat tarixinə qüvvədə olan və ya əslində qüvvəyə minmiş müvafiq qanunvericiliyə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarətdir və bu və ya digər dövrdə vergi təsiri digər ümumi gəlirlərdə və ya bilavasitə kapitalda uçota alınan əməliyyatlar istisna olmaqla, mənfəət və ya zərər kimi əks etdirilir.

### Cari mənfəət vergisi

Cari mənfəət vergisi, cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət və ya zərər ilə bağlı vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir. Mənfəət vergisi olmayan digər vergilər əməliyyat xərcləri kimi qeydə alınır.

### Təxirə salınmış vergi

Təxirə salınmış vergi aktivləri və öhdəlikləri maliyyə hesabatlılığı məqsədləri üçün istifadə olunan aktivlərin və öhdəliklərin balans dəyərləri ilə vergiqoyma məqsədləri üçün istifadə olunan məbləğləri arasında olan müvəqqəti fərqlər üzrə hesablanır.

Təxirə salınmış vergi aktivləri və öhdəlikləri nə uçot, nə də vergilərə cəlb edilən mənfəətə təsir göstərməyən aktiv və ya öhdəliklərin ilkin tanınması üzrə müvəqqəti fərqlər üçün uçota alınmır. Təxirə salınmış vergi aktivləri və öhdəliklərinin müəyyənləşdirilməsi hesabat dövrünün sonuna Şirkətin öz aktiv və öhdəliklərinin balans dəyərini bərpa etməyi gözlədiyi formaya əsaslanan vergi nəticələrini əks etdirir.

Təxirə salınmış vergi aktivləri və öhdəlikləri, hesabat tarixinə qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş qanunlara uyğun olaraq, müvəqqəti fərqlərə onlar ləğv ediləcəyi zaman tətbiq ediləcək gözlənilən vergi dərəcələri əsasında müəyyən olunur.

Müvəqqəti fərqlərin, istifadə edilməmiş vergi itkilərinin və kreditlərin əvəzini ödəyə biləcək gələcək vergi tutula bilən gəlirlərin mövcud olacağı ehtimal olunduqda, təxirə salınmış vergi aktivi uçota alınır. Əlaqədar vergi gəlirinin reallaşdırılması ehtimal olunmadıqda, təxirə salınmış vergi aktivi azaldılır.

## 4. Əsas mühasibat uçotu prinsiplərinin xülasəsi (davamı)

### Ehtiyatlar

Ehtiyatlar, Qrup keçmiş hadisələr nəticəsində cari hüquqi və ya əsaslanmış öhdəliyə malik olduqda, öhdəliyin yerinə yetirilməsi üçün iqtisadi səmərə yaradan ehtiyatların azalma ehtimalı olduqda və öhdəlik məbləği etibarlı şəkildə qiymətləndirildikdə uçota alınır. Ehtiyat kimi tanınan məbləğ hesabat dövrünün sonunda müvafiq risklər və qeyri-müəyyənliklər də nəzərə alınmaqla cari öhdəliyi yerinə yetirmək üçün tələb olunan məbləğin təxmini göstəricisidir. Ehtiyatı hesablayarkən cari öhdəliyi yerinə yetirmək üçün tələb olunan pul vəsaitlərinin təxminindən istifadə edilirsə, ehtiyatın qalıq dəyəri bu pul vəsaitlərinin cari dövrə olan diskontlaşdırılmış dəyərinin cəminə bərabərdir (pulun vaxt dəyərinin əhəmiyyət kəsb etdiyi hallarda). Ehtiyatın qarşılanması üçün tələb edilən iqtisadi faydaların tam və ya qismən üçüncü şəxslərin hesabına geri qaytarılması gözlənilirsə, debitor borc aktiv kimi yalnız o halda tanınır ki, üçüncü tərəfin kompensasiya ödəməsi ehtimalı var və bu məbləğ etibarlı şəkildə təxmin edilə bilər.

### Nizamnamə kapitalı

Adi səhmlər və imtiyazlı dividendləri olan geri alınmayan üstünlük səhmləri hər ikisi kapital kimi təsnifləşdirilir. Adi səhmlərin və səhm opsionların buraxılmasına bilavasitə aid edilə bilən xərclər vergiqoyma baxımından heç bir nəticə olmadan kapitaldan tutulma kimi uçota alınır. Əldə edilmiş ədalətli dəyərin buraxılmış səhmlərin nominal dəyərindən artıq olması qeydlərdə səhm mükafatı kimi göstərilir.

Səhmdar kapitalından başqa səhmdarların töhfəsi və ya çıxarılması digər ehtiyatlarda tanınır.

### Dividendlər

Dividendlər öhdəlik kimi tanınır və hesabat tarixinə yalnız hesabat tarixindən əvvəl və ya hesabat tarixində elan edildikdə kapitaldan çıxılır. Dividendlər hesabat tarixindən əvvəl və ya hesabat tarixindən sonra,lakin konsolidə edilmiş maliyyə hesabatlarının verilməsi üçün təsdiqlənmədən təklif edildikdə açıqlanır.

### Funksional və təqdimat valyutası

Qrupun əməliyyat valyutası Azərbaycan Respublikasının milli valyutası olan və baş verən əksər hadisələrin və onlarla bağlı vəziyyətlərin iqtisadi mahiyyətini əks etdirən Azərbaycan Manatıdır (“AZN”). 31 dekabr 2021-ci il tarixinə xarici valyuta qalıqlarının çevrilməsi üçün əsas mübadilə məzənnəsi aşağıdakı kimi olmuşdur: 1 ABŞ dolları = 1.7000 AZN və 1 Avro = 1,9265 AZN (31 dekabr 2020: 1 ABŞ dolları = 1.7000 AZN və 1 Avro = 2,0890AZN). Azərbaycan Manatı (AZN) həmçinin bu maliyyə hesabatlarının məqsədləri üçün təqdimat valyutasıdır.

### Xarici valyuta ilə həyata keçirilən əməliyyatlar və qalıqlar

Xarici valyuta ilə əməliyyatlar əməliyyatların tarixlərində qüvvədə olan müvafiq valyuta məzənnələrini (spot məzənnəsi) tətbiq etməklə funksional valyutaya çevrilir. Bu əməliyyatlar üzrə hesablamalardan və monetar maddələrin ilin sonuna olan məzənnə ilə təkrar qiymətləndirilməsindən yaranan məzənnə gəlirləri və zərərləri mənfəət və ya zərərdə tanınır. Ədalətli dəyərin müəyyən edildiyi tarixdə məzənnələrdən istifadə etməklə çevrilən ədalətli dəyərlə ölçülmüş qeyri-monetar maddələrdən başqa qeyri-monetar maddələr ilin sonuna təkrar çevrilmir və ilkin maya dəyəri ilə qiymətləndirilir (əməliyyat tarixində məzənnələrdən istifadə etməklə çevrilir).

## 5. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli uçot təxminləri və fərziyyələr

Qrup maliyyə hesabatlarında göstərilən məbləğlərə və aktiv və öhdəliklərin balans dəyərinə növbəti maliyyə ili ərzində təsir göstərən təxminlər və fərziyyələr irəli sürür. Həmin təxminlər və fərziyyələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik həmçinin peşəkar mülahizələr və təxminlər irəli sürür.

Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan təxminlərə aşağıdakılar daxildir:

### Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi

Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi müvafiq metodologiya, modellər və ilkin məlumatlardan istifadə etməklə aparılan əhəmiyyətli hesablamadır. Aşağıdakı komponentlər kredit zərərləri üzrə ehtiyata əhəmiyyətli dərəcədə təsir göstərir: defolt, kredit riskinin əhəmiyyətli dərəcədə artması (KRƏA), defolt ehtimalı (DE), defolta məruz qalan dəyər (DMQD), defolt baş verəcəyi halda itirilməsi gözlənilən məbləğ (DHZ), eləcə də makroiqtisadi ssenarilər. Cəmiyyət gözlənilən kredit zərərləri üzrə ehtimallar və faktiki kredit zərərləri arasındakı fərqlərin azaldılması məqsədilə modelləri və modellər üzrə məlumatları müntəzəm olaraq təhlil edir və təsdiqləyir.

### Biznes modelin qiymətləndirilməsi

Maliyyə aktivləri biznes model əsasında təsnifləşdirilir. Biznes modeli qiymətləndirərkən rəhbərlik birləşmə səviyyəsini və maliyyə alətləri üzrə portfelləri müəyyən etmək üçün mülahizələrdən istifadə etmişdir. Satış əməliyyatlarını qiymətləndirərkən Qrup onların əvvəlki dövrlərdə baş vermə tezliyini, müddətini və dəyərini, satış səbəblərini və gələcək satışlar ilə bağlı gözləntiləri nəzərə alır. Kredit keyfiyyətinin pisləşməsinə görə potensial zərərlərin azaldılmasına yönəldilmiş satış əməliyyatları "pul axınlarının əldə edilməsi" biznes modelinə uyğun hesab edilir. Kredit riskinin idarə olunması tədbirləri ilə bağlı olmayan ödəmə müddətinə qədər həyata keçirilən digər satışlar da nadir hallarda baş verməsi və dəyərinin ayrılıqda və ya məcmu olaraq əhəmiyyətli olmaması şərtilə, "pul axınlarının əldə edilməsi" biznes modelinə uyğun hesab edilir.

Qrup satış əməliyyatlarının əhəmiyyətini satışların həcmi ilə portfelin orta müddəti ərzində biznes modeli qiymətləndirilən portfelin dəyərini müqayisə etməklə qiymətləndirir. Bundan əlavə, yalnız "stress" ssenarilərdə və ya Qrupun nəzarətində olmayan, təkrar baş verməyən və Qrup tərəfindən proqnozalşdırıla bilməyən ayrıca hadisə ilə bağlı gözlənilən maliyyə aktivlərinin satışı biznes modelin məqsədi ilə əlaqəli olmayan satış əməliyyatı hesab olunur və müvafiq maliyyə aktivlərinin təsnifatına təsir göstərmir.

"Pul axınlarının əldə edilməsi və satılması" biznes modelində aktivlərin pul axınlarının əldə edilməsi üçün saxlanılması nəzərdə tutulsa da, aktivlərin biznes modelin məqsədlərinə (likvidlik ehtiyaclarının idarə olunması, müəyyən faiz gəlirlərinin əldə edilməsi və ya maliyyə aktivlərinin müddətinin həmin aktivlərin maliyyələşdirdiyi öhdəliklərin müddəti ilə uyğunlaşdırılması) nail olmaq üçün satışı onun tərkib hissəsi hesab edilir.

Digər kateqoriyaya əsasən satış vasitəsilə mənfəət əldə etmək üçün nağd pul axınlarının reallaşdırılması məqsədilə idarə olunan maliyyə aktivləri üzrə portfellər daxildir. Bu biznes model adətən müqavilədə nəzərdə tutulan pul axınlarının əldə edilməsi ilə əlaqəlidir.

## 5. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli uçot təxminləri və fərziyyələr (davamı)

### Pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri ("YƏMFÖ") meyarına uyğunluğunun qiymətləndirilməsi

Maliyyə aktivi üzrə pul axınlarının yalnız əsas borc və faiz ödənişləri meyarına uyğunluğunu müəyyən etmək üçün mülahizələrin irəli sürülməsi tələb edilir.

Qrup müqavilə üzrə nağd pul axınlarının müddətini və ya məbləğini dəyişən müqavilə şərtlərini müəyyən etmiş və nəzərdən keçirmişdir. Nağd pul axınları o halda yalnız əsas borc və faiz ödənişləri meyarına uyğun hesab edilir ki, kreditin şərtlərinə görə onu vaxtından əvvəl ödəmək mümkün olsun, vaxtından əvvəl ödənilən məbləğ əsas borcu və hesablanmış faizləri, eləcə də müqaviləyə vaxtından əvvəl xitam verilməsinə görə əsaslandırılmış əlavə kompensasiyanı özündə əks etdirsin. Aktiv üzrə əsas məbləğ əsas borc üzrə sonrakı ödənişlər (yəni, effektiv faiz metodundan istifadə etməklə müəyyən edilmiş faizsiz ödənişləri) çıxılmaqla, ilkin tanınma zamanı ədalətli dəyərə bərabərdir. Bu qaydada istisna hal olaraq standart, həmçinin qabaqcadan ödəniş elementlərinə malik olan alətlərə yalnız əsas borc və faiz ödənişləri meyarına uyğun olmaq üçün aşağıdakı şərtlərə cavab verməyə imkan yaradır: (i) aktiv mükafat və ya güzəştlə verildikdə (ii) qabaqcadan ödəniş məbləği müqavilə üzrə nominal dəyərdən və hesablanmış faizlərdən, eləcə də müqaviləyə vaxtından əvvəl xitam verilməsinə görə əsaslandırılmış əlavə kompensasiyadan ibarət olduqda və (ii) ilkin tanınma zamanı vaxtından əvvəl ödəniş elementinin ədalətli dəyəri əhəmiyyətsiz olduqda.

Qrupun kredit müqavilələri makroiqtisadi və ya normativ şərtlərdəki müəyyən dəyişikliklərə cavab olaraq faiz dərəcələrinin tənzimlənməsinə imkan verir. Rəhbərliyin öz mülahizəsi və qiymətləndirməsinə görə, bank sektorundakı rəqabət və borcalanların kreditləri yenidən maliyyələşdirmək qabiliyyəti faiz dərəcələrini bazar səviyyəsindən daha yuxarı müəyyən etməsinə mane olur və buna görə də pul axınları SPPI meyarına uyğun qiymətləndirilir.

### Təxirə salınmış vergi aktivinin uçotu

Tanınmış təxirə salınmış xalis vergi aktivi vergiyə cəlb olunan gəlirdən gələcək çıxılmalar vasitəsilə əldə olunan mənfəət vergisi məbləğlərindən ibarətdir və maliyyə vəziyyəti haqqında hesabatda qeydə alınır. Təxirə salınmış mənfəət vergisi aktivi müvafiq vergi faydasının realizasiya oluna biləcəyi zaman qeydə alınır. Vergiyə cəlb olunan gələcək mənfəətin və gələcəkdə yaranması ehtimal edilən vergi faydası məbləğinin müəyyən edilməsi rəhbərlik tərəfindən hazırlanmış ortamüddətli biznes planına və onun ekstrapolyasiya nəticələrinə əsaslanır. Biznes-plan rəhbərliyin şəraitə adekvat olan təxminlərinə əsaslanır.

### Əmlak və avadanlıqların faydalı istifadə ömrü

Rəhbərlik əmlak və avadanlıqların ehtimal olunan faydalı istifadə ömrünü və əlaqəli köhnəlmə xərclərini müəyyən edir. Bu ehtimal, Qrupun aktivlər üzrə təxmin etdiyi iqtisadi mənfəətlər üzrə proqnozlaşdırılan müddətə əsaslanır. Rəhbərlik köhnəlmə xərclərini, istifadə müddətinin, əvvəlki ehtimal olunan müddətdən daha az olduğu hallarda artırır və ya köhnəlmiş aktivləri tərk edilmiş və ya satılmışsa, bu aktivləri texniki olaraq qismən və ya bütünlüklə uçotdan silinir. Faydalı istifadə müddəti ən azı hər hesabat tarixində nəzərdən keçirilir.

### İcarə müddətinin müəyyən edilməsi

16 saylı MHBS-nin tətbiqi aktivlər və icarə öhdəliklərindən istifadə hüququna dair mülahizələr aparmağı tələb edir. İcarə müddətini təyin edərkən, Qrup yeniləmə seçimlərini həyata kecirmək üçün iqtisadi stimul yaradan bütün amilləri və halları ( və ya ləğvetmə seçimlərini etməməyi) nəzərə alır. Müqavilənin icarə elementlərinə malik olub-olmadığını qiymətləndirmək də mühakimə tələb edir. İcarə öhdəliklərini hesablamaq məqsədilə istifadə olunan müvafiq diskont dərəcəsini müəyyənləşdirmək üçün təxminlərin edilməsi tələb olunur.

## 5. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli uçot təxminləri və fərziyyələr (davamı)

**Əlaqəli tərəflərlə əməliyyatların ilkin uçotu**

Qrup öz fəaliyyəti gedişində əlaqəli tərəflərlə əməliyyatlar aparır. 9 saylı MHBS-yə uyğun olaraq maliyyə alətləri ilkin olaraq ədalətli dəyərdə uçota alınmalıdır. Lakin, həmin əməliyyatların bazar və ya qeyri-bazar faiz dərəcələrində həyata keçirilməsini müəyyən etmək məqsədilə bu cür əməliyyatlar üçün fəal bazar mövcud olmadıqda peşəkar mülahizələrdən istifadə etmək lazım gəlir. Mülahizələrin irəli sürülməsinin əsasını əlaqəli olmayan tərəflərlə analoji əməliyyatların qiymətinin müəyyən edilməsi və effektiv faiz dərəcəsinin təhlili təşkil edir.

**Fasiləsiz fəaliyyət prinsipi**

Rəhbərlik hazırkı maliyyə hesabatlarını fasiləsiz fəaliyyət prinsipinə əsasən hazırlamışdır. Belə bir mülahizə irəli sürərkən rəhbərlik Qrupun maliyyə vəziyyətini, mövcud planları, əməliyyatların gəlirliliyini və maliyyə resurslarından istifadəni nəzərə almış və son maliyyə böhranının Qrupun gələcək əməliyyatlarına təsirini təhlil etmişdir.
Rəhbərliyin ölçü və hesabatlarına əsasən Qrup növbəti 12 ay ərzində likvidlik ehtiyaclarını tənzimləyə biləcək və buna əsasən hazırkı maliyyə hesabatları fasiləsizlik prinsipi əsasında hazırlanmışdır.

**Yenidən qiymətləndirmə**

Əmlak və avadanlıqların kateqoriyası yenidən qiymətləndirilmiş dəyərlə ölçülür. Ən son qiymətləndirmə tarixi 05 avqust 2021-ci ildir. Yenidən qiymətləndirilmiş Əmlak və avadanlıqların balans dəyəri 31 dekabr 2021-ci il tarixinə 8,611,608 AZN təşkil edir.

## 6. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi

Cari ildə Qrup Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (MUBSŞ) və MUBSŞ-un Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (BMHŞK) tərəfindən qəbul edilmiş, Qrupun fəaliyyəti üçün münasib olan və 31 dekabr 2021-ci il tarixində başa çatmış hesabat dövrlərinə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir.

Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMUSŞ), Banklararası təklif olunan faiz həddi (“IBOR”) üzrə aparılan islahatların maliyyə hesabatlılığı üzrə yarana biləcək potensial təsirinə cavab olaraq, **“Baza Faiz Dərəcəsi İslahatı”nı (9 saylı MHBS, 39 saylı BMUS və 7 saylı MHBS-ə edilmiş Düzəlişləri)** dərc etmişdir. İslahatlar hedcinq edilmiş maddənin və ya hedcinq alətinin göstəricilərinə əsaslanan pul axınlarının vaxtı və/və ya məbləği ilə bağlı qeyri-müəyyənliyə səbəb olarsa, hedcinq əlaqəsi təsirə məruz qalır. Bu düzəlişlərin heç bir faiz dərəcəsi hedcinq əlaqəsi olmadığı üçün Qrupun maliyyə hesabatlarına təsiri yoxdur.

**3 saylı MHBS Müəssisələrin Birləşməsi. “Müəssisə” tərifinə edilən Düzəliş**

Düzəlişlər şirkətlərə əldə edilmiş aktivlərin müəssisə və ya aktivlər qrupu olduğunu müəyyənləşdirməyə kömək edəcək. Edilmiş düzəliş biznes xidmətlərinin nəticələrinin müştəriləri məhsul və xidmətlər ilə təmin etmək olduğunu vurğulayır. Halbuki əvvəlki anlayışa əsasən, biznes anlayışı dividend şəklində, daha aşağı xərclərə və ya investorlara və digərlərinə iqtisadi mənfəət təmin etmək məqsədi daşıyırdı. Alınan aktivin müəssisə və ya aktivlər qrupu olduğunu fərqləndirmək vacibdir, çünki alıcı qudvili yalnız biznes alarkən tanıyır. Dəyişikliklərə əsasən, “biznes”in yeni tərifi müştərilərə məhsul və ya xidmətlərin göstərilməsi, investisiya gəlirinin yaranması (məsələn, dividendlər və faizlər) və ya adi fəaliyyətdən digər gəlirlər yaranmasının ayrılmaz tərkib hissəsidir.

## 6. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi(davamı)

### “Əhəmiyyətlilik” anlayışının yeni tərifi

MUBSŞ şirkətlərin əhəmiyyətlisliklə bağlı qərarları daha asan verməsi üçün əhəmiyyətlilik prinsipinə düzəlişlər dərc etmişdir. Yeni dəyişikliklər “Maliyyə Hesabatlarının Təqdimatı” adlı 1 saylı BMUS və “Mühasibat Uçotu Qaydaları, Uçot Ehtimallarındakı Dəyişikliklər və Xətalar” adlı 8 saylı BMUS-a şamil edilir. Dəyişikliklər əhəmiyyətliliyin tərifini və bu günə qədər MHBS-in digər standartlarında göstərilmiş olan əhəmiyyətlilik prinsiplərinin tətbiqi ilə bağlı təlimatları da hesabat hazırlayanlar üçün aydınlaşdırır. Yeni tərifə əsasən, məlumat o zaman əhəmiyyətli sayılır ki, onun gizlədilməsi, təhrif edilməsi və ya dəyişdirilməsinin maliyyə hesabatlarını ümumi məqsədlər üçün istifadə edən əsas tərəflərin qərarlarına təsir etməsi ehtimal edilir və bu məlumat hesabat hazırlayan konkret müəssisə üzrə maliyyə məlumatı xarakterinə malikdir.

15 may 2020-ci ildə BMUSŞ tərəfindən **“COVID-19 ilə əlaqəli İcarə Güzəştləri”nə (16 saylı MHBS-ə edilmiş Düzəliş)** icarəçilərin COVID-19 ilə əlaqəli icarə güzəştinin icarə modifikasiyası olubolmadığının qiymətləndirilməsinə dair güzəşt ilə təmin edilməsi düzəlişi edilmişdir.

COVID-19 ilə əlaqəli İcarə Güzəştləri üzrə dəyişikliklər (16 saylı MHBS-ə edilmiş düzəliş) 16 saylı MHBS-ə aşağıdakı düzəlişləri etmişdir:

- icarəçilərin COVID-19 ilə əlaqəli icarə güzəştinin icarə modifikasiyası olub-olmadığının qiymətləndirilməsinə dair güzəşt ilə təmin edilməsi;
- güzəşt tətbiq edən icarəçilərdən, icarə modifikasiyası olmadığı kimi, COVID-19 ilə əlaqəli icarə güzəştlərini hesaba vermələrinin tələb edilməsi;
- güzəşt tətbiq edən icarəçilərdən bu faktı açıqlamalarının tələb edilməsi; və
- icarəçilərdən 8 saylı BMUS-a uyğun olaraq güzəşt tədbirlərinin retrospektiv şəkildə tətbiq etmələrinin və əvvəlki dövr rəqəmlərini yenidən təkrar etməmələrinin tələb edilməsi.

Düzəlişlər 1 iyun 2020-ci il tarixindən etibarən qüvvədədir. Düzəlişlərin erkən tətbiqinə icazə verilir. Bu standartın qəbul edilməsi maliyyə hesabatlarına hər hansı bir formada təsir etməmişdir.

Əksi qeyd olunmadığı halda, yeni standartların Qrupun maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərməsi gözlənilmir.

Hazırkı maliyyə hesabatlarının təsdiq edilməsi tarixində Qrup tərəfindən, qüvvəyə minmə tarixindən əvvəl qəbul edilmiş standart və şərhlərdən əlavə, aşağıda göstərilən standart və şərhlər dərc edilmiş, lakin qüvvəyə minməmişdir.

### 17 saylı MHBS - “Sığorta müqavilələri”

2017-ci ilin may ayında dərc olunmuşdur və 4 saylı MHBS “Sığorta müqavilələri”ni əvəz edir. Yeni standart sığorta müqavilələrinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir. Müəssisə buraxdığı təkrar sığorta müqavilələri də daxil olmaqla sığorta müqavilələrinə; əlində olan təkrarsığorta müqavilələrinə; imtiyazlı iştirak xüsusiyyətləri ilə buraxdığı investisiya müqavilələrinə; müəssisənin bağladığı sığorta müqavilərinə “Sığorta müqavilələri” adlı 17 saylı MHBS-i tətbiq etməlidir.

## 6. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi(davamı)

17 saylı MHBS, 2023-cü il yanvarın 1-də və ya ondan sonra başlayan illik hesabat dövrləri üçün qüvvədədir. “Müştərilərlə Müqavilələrdən Əldə Edilən Gəlir” adlı 15 saylı MHBS və “Maliyyə Alətləri” adlı 9 saylı MHBS standartları ilə birlikdə tətbiq olunduğu təqdirdə, erkən tətbiqinə icazə verilir.

**Öhdəliklərin təsnifatına aydınlıq gətirilməsi ilə bağlı 1 saylı BMUS üzrə Düzəlişlər**

2020-ci il yanvar ayında BMUSŞ **“Cari və Uzunmüddətli olmaqla, Öhdəliklərin Təsnifatı”nı (1 saylı BMUS üzrə Düzəlişlər)** dərc etmişdir. Düzəlişlər öhdəliklərin 1 saylı BMUS-a əsasən, hesabat tarixinə müqavilə razılaşmaları üzrə təsnifatına daha ümumi yanaşma təklif edir. Öhdəliklərin cari və uzunmüddətli olmaqla təsnifatı üzrə düzəlişlər (1 saylı BMUS üzrə Düzəlişlər) aktiv, öhdəlik üzrə gəlirlərin və ya xərclərin tanınma müddətinə və ya məbləğinə, eləcə də bu anlayışlar üzrə müəssisənin təqdim etdiyi açıqlamalara deyil, yalnız öhdəliklərin maliyyə vəziyyəti haqqında hesabatdakı təqdimatına təsir edir.

Düzəlişlər 1 yanvar 2023-cü il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvədədir və retrospektiv şəkildə tətbiq olunmalıdır. Düzəlişlərin erkən tətbiqinə icazə verilir.

**Maliyyə Uçotunun Konseptual Əsaslarına İstinad – 3 saylı MHBS-yə edilmiş Düzəliş**

2020-ci ilin may ayında BMUSŞ tərəfindən **“Müəssisələrin birləşməsi” adlı 3 saylı MHBS-ə** düzəliş dərc edilmişdir. Düzəliş 2018-ci ilin mart ayında dərc edilmiş “Maliyyə Hesabatlılığının Konseptual Əsasları”na istinad ilə birlikdə, bu düzəlişin tələblərini əhəmiyyətli dərəcədə dəyişmədən, 1989-cu ildə dərc edilmiş “Maliyyə Hesabatlarının Hazırlanması və Təqdimatın Əsasları”na edilən istinadın əvəz olunmasını nəzərdə tutur. Şura eyni zamanda, 37 saylı BMUS və ya “Təminatlar” adlı 21 saylı BMHŞK çərçivəsində, ayrı olaraq yaranırsa, borclar və şərti öhdəliklər üçün yaranan potensial “2 gün” mənfəət və ya zərərlərindən yayınmaq üçün 3 saylı MHBS-in tanınma prinsipinə istisna da əlavə etmişdir. Eyni zamanda, Şura “Maliyyə Hesabatlarının Hazırlanması və Təqdim Olunması Əsasları”na istinadın əvəz edilməsindən təsirlənməyəcək şərti aktivlər üçün 3 saylı MHBS-in mövcud təlimatına dair izahlar verməyi qərarlaşdırmışdır. Düzəlişlər 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir və perspektivli şəkildə tətbiq olunur

**Əmlak, Tikili və Avadanlıqlar: Nəzərdə tutulan İstifadədən əvvəl Daxilolmalar- 16 saylı BMUS-a edilən düzəlişlər**.

2020-ci ilin may ayında, BMUSŞ müəssisələrin əmlak, tikili və avadanlıqların dəyərindən, rəhbərliyin nəzərdə tutduğu qaydada fəaliyyət göstərə bilməsi üçün həmin aktivləri lazımi yerə və şəraitə çatdırarkən istehsal olunan aktivlərin satışından əldə olunan gəlirləri çıxmağı qadağan edən “Əmlak, Tikili və Avadanlıqlar – Nəzərdə tutulan İstifadədən əvvəl Daxilolmalar” düzəlişini dərc etmişdir. Bunun əvəzinə, müəssisə bu cür aktivlərin satışından əldə olunan gəlirləri və bu aktivlərin istehsal xərclərini mənfəət və zərər hesabında tanıyır. Dəyişiklik 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir və müəssisənin düzəlişi ilk dəfə tətbiq etdiyi zaman təqdim olunan ən erkən dövrün başlanğıcında və ya ondan sonra istifadəyə veriləbilən əmlak, tikili və avadanlıqlara retrospektiv şəkildə tətbiq edilməlidir.

## 6. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi(davamı)

**Ağır Şərtli Müqavilələr – Müqavilənin Yerinə Yetirilməsinə dair Xərclər – 37 saylı BMUS-a edilən düzəlişlər.**

2020-ci ilin may ayında, BMUSŞ, 37 saylı BMUS-a müqavilənin ağır şərtli və ya zərər yaradan olduğunu qiymətləndirərkən müəssisənin hansı xərcləri nəzərə alması barədə düzəlişlər etmişdir. Düzəlişlər “birbaşa əlaqəli xərc yanaşması”nı tətbiq edir. Mal və ya xidmətləri təmin etmək üçün birbaşa müqaviləyə aid olan xərclərə həm artan xərclər, həm də müqavilə fəaliyyətləri ilə birbaşa əlaqəli xərclərin bölüşdürülməsi daxildir. Ümumi və inzibati xərclər birbaşa müqavilə ilə əlaqəli deyil və müqavilə üzrə qarşı tərəf üçün açıq şəkildə ödənilməli olmadıqca istisna olunur. Düzəlişlər 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir.

**1 saylı MHBS “Beynəlxalq Maliyyə Hesabatlılığı Standarlarının İlk dəfə Tətbiqi” – ilkin tətbiq edən törəmə olaraq.**

BMUSŞ 2018-2020-ci il üzrə illik təkmilləşdirmələr çərçivəsində 1 saylı MHBS-də “Beynəlxalq Maliyyə Hesabatı Standartlarının ilk dəfə qəbul edilməsi”ndə dəyişiklik etmişdir. Dəyişiklik ana müəssisənin MHBS-ə keçid tarixinə əsasən, ana müəssisə tərəfindən bildirilən məbləğlərdən istifadə etməklə, məcmu çevirmələr üzrə fərqlərini ölçmək üçün 1 saylı MHBS-in D16 (a) bəndini tətbiq etməyi seçən bir törəmə müəssisəyə icazə verir. Bu düzəliş 1 saylı MHBS-in D16 (a) bəndini tətbiq etməyi seçən bir asılı və ya birgə müəssisəyə də tətbiq edilir. Dəyişiklik 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir.

**9 saylı MHBS Maliyyə Alətləri - Maliyyə öhdəliklərinin silinməsi üzrə “10 faiz” dəyərində test üzrə iştirak haqqı.**

MHBS standartları prosesinə 2018-2020-ci illərdə illik təkmilləşdirmələrin bir hissəsi olaraq, BMUSŞ 9 saylı MHBS-ə düzəliş etmişdir. Düzəliş bir müəssisənin yeni və ya dəyişdirilmiş maliyyə öhdəliyinin şərtlərinin ilkin maliyyə öhdəliyinin şərtlərindən əhəmiyyətli dərəcədə fərqli olub-olmadığını qiymətləndirərkən əlavə etdiyi haqları aydınlaşdırır. Bu rüsumlara yalnız borcalan və ya borcverən tərəfindən başqasının adından ödədiyi və ya aldığı haqlar daxil olmaqla borcalanla borc verən arasında ödənilən və ya alınan ödənişlər daxildir. Müəssisə düzəlişi müəssisənin ilk dəfə tətbiq etdiyi illik hesabat dövrünün əvvəlində və ya ondan sonra dəyişdirilmiş və ya mübadilə edilmiş maliyyə öhdəliklərinə tətbiq edir. Düzəliş 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir. Qrup müəssisənin bu düzəlişin ilk tətbiq olunduğu illik hesabat dövrünün əvvəlində və ya ondan sonra dəyişdirilən və ya mübadilə edilən maliyyə öhdəliklərinə düzəlişləri tətbiq edəcəkdir.

**“41 saylı BMUS Kənd Təsərrüfatı” – Ədalətli dəyər ölçmələrində vergi.**

MHBS standartları prosesinə 2018-2020-ci illərdə illik təkmilləşdirmələrin bir hissəsi olaraq, BMUSŞ 41 saylı BMUS “Kənd Təsərrüfatı Standartı”na dəyişiklik etmişdir. Dəyişiklik 41 saylı BMUS-un 22-ci bəndində müəssisələrin, 41 saylı BMUS çərçivəsində aktivlərin ədalətli dəyərini ölçərkən vergitutma üçün pul axınlarını istisna etməsi tələbini aradan qaldırır.

Müəssisə düzəlişləri 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan ilk illik hesabat dövrünün başlanğıcında və ya bu tarixdən sonra ədalətli dəyər ölçmələrinə perspektivli şəkildə tətbiq edir. Düzəlişin erkən tətbiqinə icazə verilir.

## 6. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi(davamı)

### 10 saylı MHBS "Konsolidasiya Edilmiş Maliyyə Hesabatları" və 28 saylı BMUS (düzəlişlər): "İnvestor və onun Asılı və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi"

10 saylı MHBS və 28 saylı BMUS-a edilən düzəlişlər investor, onun asılı müəssisəsi və birgə müəssisə arasında aktivlərin satışı və ya ötürülməsi üzrə vəziyyəti ehtiva edir. Düzəlişlər xüsusi olaraq kapital metodu ilə konsolidasiya edilən əlaqəli və birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və zərər hesabatında əlaqəsi olmayan investorun həmin əlaqəli və ya birgə müəssisədə olan payına düşən hissəyə müdaxilə etməmək şərtilə tanınmasını tələb edir.

Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodu ilə konsolidasiya edilən assosiasiya və birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların yeni assosiasiya və ya birgə müəssisədəki payları müqabilində tanınır. Düzəlişlərin qüvvəyə minmə tarixi hələ ki, MUBSŞ tərəfindən müəyyən edilməmişdir, lakin düzəlişlərin erkən tətbiqinə icazə verilir.

Əksi qeyd olunmadığı halda, yeni standartların Qrupun maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərməsi gözlənilmir.

## 7. Əmlak və avadanlıqlar

| | Torpaq | Binalar, tikillər və qurğular | Maşınlar və avadanlıqlar | Nəqliyyat vasitələri | Cəmi |
|---|---|---|---|---|---|
| **1 yanvar 2020-ci il** | **-** | **32,584** | **150,431** | **8,698** | **191,713** |
| Əlavələr | - | 207,357 | 633,964 | 60,000 | 901,321 |
| İl üzrə köhnəlmə xərci | - | (9,538) | (93,482) | (9,675) | (112,695) |
| **31 dekabr 2020-ci il** | **-** | **230,403** | **690,913** | **59,023** | **980,339** |
| Törəmə müəssisənin alınması | - | 305,021 | 10,323 | - | 315,344 |
| Yenidən qiymətləndirmə | 332,410 | 1,480,812 | 5,557,862 | 3,377 | 7,374,461 |
| İl üzrə köhnəlmə xərci | - | (4,753) | (53,107) | (676) | (58,536) |
| **31 dekabr 2021-ci il** | **332,410** | **2,011,483** | **6,205,991** | **61,724** | **8,611,608** |

Qrupa məxsus əmlak və avadanlıqların yenidən qiymətləndirilməsi 05 avqust 2021-ci il tarixində müstəqil qiymətləndirmə ekspertləri tərəfindən aparılmışdır. Qiymətləndirmə 13 saylı MHBS "Ədalətli dəyərin ölçülməsi" standartına uyğun olaraq oxşar mülklər üzrə bazar dəyərlərinə əsaslanaraq keçirilmişdir.
31 dekabr 2021-ci il tarixinə yenidən qiymətləndirilmiş əmlak və avadanlıqların balans dəyəri 8,611,608 AZN təşkil edir.

## 8. Mal-material ehtiyatları

| | 31 dekabr 2021 | 31 dekabr 2020 |
|---|---|---|
| Qara metal qırıntıları | 2,400,928 | - |
| Digər ehtiyatlar | - | 24,963 |
| **Cəmi mal-material ehtiyatları** | **2,400,928** | **24,963** |

## 9. Ticarət və digər debitor borcları

| | 31 dekabr 2021 | 31 dekabr 2020 |
|---|---|---|
| Debitor borcları | 919,618 | 51,270 |
| Əlaqəli tərəflər üzər debitor borcları | 450,000 | - |
| **Ticarət və digər debitor borclara daxil olan maliyyə aktivlərinin cəmi** | **1,369,618** | **51,270** |
| Qabaqcadan ödənişlər | 676,867 | - |
| **Cəmi ticarət və digər debitor borcları** | **2,046,485** | **51,270** |

## 10. Pul və pul vəsaitlərinin ekvivalentləri

| | 31 dekabr 2021 | 31 dekabr 2020 |
|---|---|---|
| Nağd pul | - | 65,663 |
| Bank hesablarında pul vəsaitləri | 1,302,741 | 27 |
| ƏDV deposit hesabı | 471 | 23,431 |
| **Cəmi pul və pul vəsaitlərinin ekvivalentləri** | **1,303,212** | **89,121** |

## 11. Buraxılmış borc qiymətli kağızları

| | 31 dekabr 2021 | 31 dekabr 2020 |
|---|---|---|
| İstiqrazlar | 3,000,000 | - |
| Hesablanmış ödəniləcək faizlər | 20,139 | - |
| **Cəmi buraxılmış borc qiymətli kağızları** | **3,020,139** | **-** |

2021-ci il ərzində dəyəri 3,000,000 AZN olan, 3,000 ədəd istiqraz emissiya olunmuş və satılmışdır. Hər bir istiqrazın nominal dəyəri 1,000 AZN-dir.

| | **31 dekabr 2020-ci il** | **Nağdsız dəyişikliklər** | **Pul vəsaitlərinin hərəkəti** | | | **31 dekabr 2021-ci il** |
|---|---|---|---|---|---|---|
| | | *Maliyyə xərci* | *Ödənilmiş faiz* | *Daxilolmalar* | *Ödənilmiş əsas məbləğ* | |
| | - | 20,139 | - | 3,000,000 | - | 3,020,139 |
| **Cəmi** | **-** | **20,139** | **-** | **3,000,000** | **-** | **3,020,139** |

## 12. Borc vəsaitləri

| | 31 dekabr 2021 | 31 dekabr 2020 |
|---|---|---|
| Müddətli kreditlər | 1,175,721 | 793,940 |
| **Cəmi borc vəsaitləri** | **1,175,721** | **793,940** |

Qrup ilə "PASHA Bankı" ASC arasında dövriyyə vəsaitlərinin artırılması məqsədilə, 29.12.2021-ci il tarixində 12 ay müddətinə 1,800,000 AZN məbləğində, illik 12% dərəcəsi ilə kredit xətti müqaviləsi imzalanmışdır.

| | 31 dekabr 2020-ci il | Nağdsız dəyişikliklər | Pul vəsaitlərinin hərəkəti | | | 31 dekabr 2021-ci il |
|---|---|---|---|---|---|---|
| | | *Maliyyə xərci* | *Ödənilmiş faiz* | *Daxilolmalar* | *Ödənilmiş əsas məbləğ* | |
| | 793,940 | 70,633 | (70,633) | 1,000,000 | (618,219) | 1,175,721 |
| **Cəmi** | **793,940** | **70,633** | **(70,633)** | **1,000,000** | **(618,219)** | **1,175,721** |

Qrupun borc vəsaitləri aşağıdakı valyutalarla ifadə olunur:

| | 31 dekabr 2021 | 31 dekabr 2020 |
|---|---|---|
| Borclar aşağıdakı valyutalarla ifadə edilirlər: | | |
| - AZN | 1,175,721 | 793,940 |
| - ABŞ dollar | - | - |
| **Cəmi borc vəsaitləri** | **1,175,721** | **793,940** |

## 13. Səhmdardan alınmış borc öhdəlikləri

| | 31 dekabr 2021 | 31 dekabr 2020 |
|---|---|---|
| Səhmdardan alınmış borc öhdəlikləri | 22,500 | 245,038 |
| **Cəmi səhmdardan alınmış borc öhdəlikləri** | **22,500** | **245,038** |

Səhmdarlar dövriyyə vəsaitinin artırılması və cari borcların ödənilməsi üçün Qrupa faizsiz borc vəsaiti vermişdir. Rəhbərlik bu vəsaiti səhmdardan alınmış borc öhdəlikləri kimi təsnifatlaşdırmışdır ki, bu borc gələcək tarixilərdə müəssisə tərəfindən geri ödəniləcəkdir.

## 14. Ticarət və digər kreditor borcları

| | 31 dekabr 2021 | 31 dekabr 2020 |
|---|---|---|
| Kreditor borcları | 373,207 | - |
| **Ticarət və digər kreditor borclarına daxil olan cəmi maliyyə aktivləri** | **373,207** | **-** |
| Alınmış avanslar | 683,956 | 15,000 |
| **Cəmi ticarət və digər kreditor borcları** | **1,057,163** | **15,000** |

Ticarət və digər debitor borcları üçün ödənilməmiş qalıqlara faiz tətbiq olunmur.

## 15. Digər cari öhdəliklər

| | 31 dekabr 2021 | 31 dekabr 2020 |
|---|---|---|
| Əmək haqqı üzrə işçi heyəti ilə hesablaşmalar | 83,228 | - |
| Sosial sığorta üzrə qısamüddətli öhdəliklər | 73,754 | 6,714 |
| Vergilər üzrə büdcə ilə hesablaşmalar | - | 23,839 |
| **Cəmi digər cari öhdəliklər** | **156,982** | **30,553** |

## 16. Gəlirlər

| | 31 dekabr 2021-ci il tarixində bitən il | 31 dekabr 2020-ci il tarixində bitən il |
|---|---|---|
| Malların satışı | 2,422,925 | 1,724,338 |
| Daşınan və daşınmaz əmlakın icarə verilməsindən gəlir | - | 45,000 |
| **Cəmi gəlirlər** | **2,422,925** | **1,769,338** |

## 17. Satışların maya dəyəri

| | 31 dekabr 2021-ci il tarixində bitən il | 31 dekabr 2020-ci il tarixində bitən il |
|---|---|---|
| Əmək haqqı və ona bərabər tutulan xərclər | (188,077) | (252,528) |
| Sosial sığorta xərcləri | (37,285) | (50,719) |
| Xammal və material | (486,148) | (606,227) |
| Enerji xərcləri | (974,642) | (624,666) |
| Nəqliyyat xərcləri | (20,054) | - |
| Təmir və istismar xərcləri | (395) | - |
| Digər xərclər | (66,844) | - |
| Amortizasiya ayırmaları | (58,536) | (112,696) |
| **Cəmi satışların maya dəyəri** | **(1,831,981)** | **(1,646,836)** |

## 18. İnzibati xərclər

| | 31 dekabr 2021-ci il tarixində bitən il | 31 dekabr 2020-ci il tarixində bitən il |
|---|---|---|
| Gəlirdən cıxılan vergilər | (38,731) | (5,551) |
| Əmək haqqı və ona bərabər tutulan xərclər | (20,898) | (28,059) |
| Bank xidməti üzrə xərclər | (5,797) | (9,898) |
| Sosial sığorta xərcləri | (4,143) | (5,636) |
| Sığorta xərcləri | (840) | - |
| Rabitə xərcləri | (517) | - |
| **Cəmi inzibati xərclər** | **(70,926)** | **(49,144)** |

## 19. Faiz xərcləri

| | 31 dekabr 2021-ci il tarixində bitən il | 31 dekabr 2020-ci il tarixində bitən il |
|---|---|---|
| Borc vəsaitləri üzrə faiz xərcləri | (79,278) | (104,000) |
| Buraxılmış borc qiymətli kağızları üzrə faiz xərcləri | (20,139) | - |
| **Cəmi faiz xərcləri** | **(99,417)** | **(104,000)** |

## 20. Mənfəət vergisi

Qrup , vergiləri Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən hazırlanmış vergi hesabatlarına və qeydlərinə əsasən hesablayır və bu hesablamalar MHBS-dən fərqlənə bilər.

Bəzi xərclər vergiyə cəlb olunmadığından və bəzi gəlirlər vergidən azad olduğundan Qrup müəyyən daimi vergi fərqlərinin təsirinə məruz qalır.

Təxirə salınmış vergilər maliyyə hesabatlarında göstərilən aktiv və öhdəliklərin qalıq dəyəri ilə onların vergi hesabatındakı qalıq dəyərləri arasındakı müvəqqəti fərqlərin xalis vergi təsirini əks etdirir. 31 dekabr 2021-ci il tarixinə müvəqqəti fərqlər əsasən gəlir və xərclərin tanınmasında müxtəlif üsulların istifadə edilməsinə, eləcə də bəzi aktivlər üzrə vergi uçotunda olan qalıqların maliyyə hesabatlarında olan qalıqlara nisbətən fərqli olması nəticəsində yaranır.

Xüsusilə Azərbaycan Respublikasının vergi qanunvericiliyi müxtəlif şərh və dəyişikliklərə səbəb ola bilər. Bundan əlavə, rəhbərliyin vergi qanunvericiliyini şərh etməsi vergi orqanlarının şərhlərindən fərqli ola biləcəyi üçün əməliyyatlar vergi orqanları tərəfindən etiraz edilə bilər və nəticədə Qrupda bu konsolidasiya edilmiş maliyyə üçün əhəmiyyətli ola biləcək əlavə vergilər, cərimələr və faizlər qiymətləndirilə bilər.

Mənfəət vergisi xərci aşağıdakı komponentlərdən ibarətdir :

| | 31 dekabr 2021-ci il tarixində bitən il | 31 dekabr 2020-ci il tarixində bitən il |
|---|---|---|
| Cari mənfəət vergisi xərci | (99,129) | - |
| Təxirə salınmış vergi gəliri | 27,313 | - |
| **Cəmi təxirə salınmış vergi öhdəliyi** | **(71,816)** | **-** |

## 20. Mənfəət vergisi

31 dekabr 2021-ci və 31 dekabr 2020-ci il tarixlərinə gözlənilən və faktiki tətbiq edilən vergi xərclərinin tutuşdurulması aşağıda göstərilir:

| | 31 dekabr 2021-ci il tarixində bitən il | 31 dekabr 2020-ci il tarixində bitən il |
|---|---|---|
| **Vergidən əvvəlki gəlir/(zərər):** | **419,081** | **(30,642)** |
| Qanunla müəyyən edilmiş vergi dərəcəsi | 20% | 20% |
| Qanunla təyin edilmiş vergi dərəcəsi ilə nəzəri vergi | (83,816) | 6,128 |
| Daimi fərqlər üzrə vergi effekti | 12,000 | (6,128) |
| **Mənfəət vergisi xərci** | **(71,816)** | **-** |

İl ərzində verginin təsiri ilə yaranan müvəqqəti fərqlərin hərəkəti aşağıdakı kimidir:

| | 31 dekabr 2021 | 31 dekabr 2020 |
|---|---|---|
| **Vergi bazasını azaldan müvəqqəti fərqlərin təsiri** | | |
| -Əmlak və avadanlıqlar | 11,285 | - |
| -Buraxılmış borc qiymətli kağızları | 4,028 | - |
| -Digər cari öhdəliklər | 12,000 | - |
| **Cəmi vergi bazasını azaldan müvəqqəti fərqlər** | **27,313** | **-** |
| **Xalis vergi bazasını azaldan müvəqqəti fərqlər** | **27,313** | **-** |
| **Təxirə salınmış vergi aktivi** | **27,313** | **-** |

## 21. Nizamnamə kapitalı

Qrupun 31 dekabr 2021-ci il tarixinə nizamnamə kapitalı 8,354,900 AZN məbləğində və hər birinin nominal dəyəri 1 AZN olan 8,354,900 ədəd səhmdən ibarətdir. 31 dekabr 2020-ci il tarixinə nizamnamə kapitalı 100 AZN məbləğində və hər birinin nominal dəyəri 10 AZN olan 10 ədəd səhmdən ibarət olmuşdur.

## 22. Şərti öhdəliklər, təəhhüdlər

Normal fəaliyyət dövründə Qrup, müştərilərin ehtiyaclarını ödəmək üçün şərti riskli maliyyə alətlərini dəstəkləyir. Müxtəlif dərəcədə kredit riski olan bu alətlər maliyyə vəziyyəti haqqında hesabatda əks olunmur. Qarşı tərəfin girov və ya təminatın yararsız olduğunu sübüt etdiyi digər tərəfdən yerinə yetirilməməsi vəziyyətində şərti öhdəliklər və kredit vermə öhdəlikləri üzrə Qrup, kredit itkisinə məruz qalır.

Qrup, ehtimal olunan şərti öhdəliklər və müddəlar üçün öhdəliklər götürərkən eyni kredit nəzarəti və idarəetmə siyasətindən istifadə edir.

### Kapital məsrəfləri ilə bağlı öhdəliklər

31 dekabr 2021-ci il və 31 dekabr 2020-ci il tarixlərinə Qrupun kapital məsrəfləri ilə bağlı əhəmiyyətli öhdəlikləri olmamışdır.

## 22. Şərti öhdəliklər,təəhhüdlər (davamı)

### Məhkəmə prosedurları

Vaxtaşırı olaraq və adi fəaliyyət gedişində Qrupa qarşı irəli sürülür. Qrupun Rəhbərliyi öz təxminlərinə, daxili və kənar peşəkarların məsləhətlərinə əsasən hesab edir ki, bu iddialarla bağlı heç bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq hazırkı maliyyə hesabatlarında hər hansı ehtiyat yaradılmamışdır.

### Vergi qanunverciliyi

Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Qrupun əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən bu cür qanunvericiliyə dair Rəhbərliyin şərhlərinə müvafiq orqanlar tərəfindən etiraz edilə bilər.

Azərbaycan Respublikası vergi orqanları qanunvericiliyin icrasını və vergi yoxlamalarını şərh edərkən daha sərt yanaşma tətbiq edə bilərlər. Onlara Ali Arbitraj Məhkəməsinin rəhbərliyi ilə yayınma hallarını aşkar etmək üçün biznes fəaliyyətini və əməliyyatların məqsədlərini araşdırmaq hüququ verilir. Büdcə ilə bağlı təzyiqlərin icrası üçün vergi toplama səylərində mümkün artımlar, yuxarı vergi orqanları tərəfindən yoxlama və nəzarət prosedurlarının tezliyinin artırılmasına da gətirib çıxara bilər. Xüsusilə, keçmişdə nəzərdən keçirilməyən əməliyyat və fəaliyyətlərin yoxlanılması nəticəsində böyük məbləğdə əlavə vergilər, cərimələr və faizlərin hesablanması mümkündür.

Vergi müddəti, baxıldığı ildən əvvəl üç təqvim ili üçün vergilərlə əlaqədar orqanların nəzərdən keçirilməsinə açıq qalır. Müəyyən şərtlər altında araşdırmalar daha uzun müddətləri əhatə edə bilər.

Azərbaycan köçürmə qiymətləri qanunvericiliyi vergi orqanlarına transfer prinsipi düzəlişləri etmək və əməliyyat qiymətinin bazar qiymətindən 20% -dən çox fərqləndiyini nəzərə alaraq, bütün nəzarət edilə bilən əməliyyatlar üzrə əlavə vergi öhdəliklərini tətbiq etmək imkanını təmin edir.

Nəzarətli əməliyyatlara Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edildiyi kimi, qarşılıqlı tərəflərlə əməliyyatlar, bütün sərhədyanı əməliyyatlar (əlaqəli və ya əlaqəli olmayan şəxslər arasında olub-olmamasından asılı olmayaraq), bir vergi ödəyicisinin tətbiq etdiyi qiymət eyni müddətdə eyni vergi ödəyicisi tərəfindən qısa müddət ərzində oxşar əməliyyatlarda tətbiq edilən qiymətdən 20% -dən çox fərqləndiyi əməliyyatlar və barter əməliyyatları aiddir. Bu qaydaların praktikada tətbiq edilməsinə dair heç bir rəsmi təlimat yoxdur. Keçmişdə bu baxımdan tətbiq edilən arbitraj məhkəməsi ziddiyyətli idi.

## 23. Əlaqəli tərəflərlə əməliyyatlar

Tərəflər o zaman əlaqəli hesab olunur ki, onlar eyni Qrupun nəzarəti altında olsun və ya onlardan biri digərinə nəzarət edə bilsin və yaxud maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı qərar qəbul edərkən digər tərəfə əhəmiyyətli təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin hüquqi formasına deyil, iqtisadi məzmununa diqqət yetirilir.

## 23. Əlaqəli tərəflərlə əməliyyatlar (davamı)

31 dekabr 2021-ci il və 31 dekabr 2020-ci il tarixlərində əlaqəli tərəflərlə əməliyyatlar üzrə qalıqlar aşağıda göstərilir:

| | 31 dekabr 2021 | | 31 dekabr 2020 | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərlə** | **Konsolidasiya edilmiş maliyyə hesabatları üzrə kateqoriya** | **Əlaqəli tərəflərlə** | **Konsolidasiya edilmiş maliyyə hesabatları üzrə kateqoriya** |
| **Ticarət və digər debitor borcları** | | **2,046,485** | | **51,270** |
| *-digər əlaqəli tərəflər* | 515,000 | | - | |
| **Səhmdardan alınmış borc öhdəlikləri** | | **22,500** | | **245,038** |
| *-digər əlaqəli tərəflər* | *22,500* | | *245,038* | |

31 dekabr 2021-ci il və 31 dekabr 2020-ci il tarixlərində əlaqəli tərəflərlə əməliyyatlar üzrə qalıqlar aşağıda göstərilir:

| | 31 dekabr 2021-ci il tarixində bitən il | | 31 dekabr 2020-ci il tarixində bitən il | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərlə** | **Konsolidasiya edilmiş maliyyə hesabatları üzrə kateqoriya** | **Əlaqəli tərəflərlə** | **Konsolidasiya edilmiş maliyyə hesabatları üzrə kateqoriya** |
| **Əsas idarə heyətinə kompensasiya** | | **(250,403)** | | **(336,942)** |
| *-qısamüddətli işçi müavinətləri* | *(9,960)* | | *(15,521)* | |

## 24. Maliyyə alətlərinin ədalətli dəyəri

31 dekabr 2021 və 2020-ci il tarixlərinə Qrupun ədalətli dəyəri ilə ölçülən maliyyə alətləri yoxdur.

Aşağıda qeyd edilən cədvəldə maliyyə alətlərinin ədalətli dəyərləri verilmişdir və hər ədalətli dəyər ölçülməsinin təsnif olunduğu ədalətli dəyər iyerarxiyasındakı səviyyə ilə təhlil edilmişdir.

| | | **Ədalətli Dəyərin ölçülməsi** | | | |
|---|---|---|---|---|---|
| | **Qiymətləndirmə tarixi** | **Aktiv bazarlarda təklif olunan qiymətlər (Səviyyə 1)** | **Əhəmiyyətli dərəcədə müşahidə olunan girişlər (Səviyyə 2)** | **Əhəmiyyətli hesab olunmayan girişlər (Səviyyə 3)** | **Cəmi** |
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | |
| Ticarət və digər debitor borcları | 31 dekabr 2021 | - | - | 1,369,618 | **1,369,618** |
| Pul vəsaitləri və onların ekvivalentləri | 31 dekabr 2021 | 1,303,212 | - | - | **1,303,212** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | |
| Borc vəsaitləri | 31 dekabr 2021 | - | - | 1,175,721 | **1,175,721** |
| Buraxılmış borc qiymətli kağızları | 31 dekabr 2021 | - | - | 3,020,139 | **3,020,139** |
| Səhmdardan alınmış borc öhdəlikləri | 31 dekabr 2021 | - | - | 22,500 | **22,500** |
| Kreditor borcları | 31 dekabr 2021 | - | - | 373,207 | **373,207** |
| Digər cari öhdəliklər | 31 dekabr 2021 | - | - | 156,982 | **156,982** |

| | | **Ədalətli Dəyərin ölçülməsi** | | | |
|---|---|---|---|---|---|
| | **Qiymətləndirmə tarixi** | **Aktiv bazarlarda təklif olunan qiymətlər (Səviyyə 1)** | **Əhəmiyyətli dərəcədə müşahidə olunan girişlər (Səviyyə 2)** | **Əhəmiyyətli hesab olunmayan girişlər (Səviyyə 3)** | **Cəmi** |
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | |
| Ticarət və digər debitor borcları | 31 dekabr 2020 | - | - | 51,270 | **51,270** |
| Pul vəsaitləri və onların ekvivalentləri | 31 dekabr 2020 | 89,121 | - | - | **89,121** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | |
| Borc vəsaitləri | 31 dekabr 2020 | - | - | 793,940 | **793,940** |
| Səhmdardan alınmış borc öhdəlikləri | 31 dekabr 2020 | - | - | 245,038 | **245,038** |
| Digər cari öhdəliklər | 31 dekabr 2020 | - | - | 30,553 | **30,553** |

### Amortizasiya olunmuş maya dəyərində qeydə alınan maliyyə alətləri.

Likvid və ya qısa müddətli (üç aydan az) olan maliyyə aktivləri və maliyyə öhdəlikləri üçün balans dəyərlərinin ekvivalentləri ədalətli dəyərin təxminini əks etdirən amortizasiya olunmuş dəyər hesab olunur. Bu fərziyyə müddəti və dəyişkən dərəcəli maliyyə alətləri olmadan tələb olunan əmanətlərə də tətbiq olunur.

## 24. Maliyyə alətlərinin ədalətli dəyəri (davamı)

Amortizasiya olunmuş maya dəyərində qeydə alınan maliyyə alətlərinin ədalətli dəyəri aşağıda göstərilir:

| | 31 dekabr 2021-ci il | | 31 dekabr 2020-ci il | |
|---|---|---|---|---|
| | **Balans dəyəri** | **Ədalətli dəyər** | **Balans dəyəri** | **Ədalətli dəyər** |
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Ticarət və digər debitor borcları | 1,369,618 | 1,369,618 | 51,270 | 51,270 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1,303,212 | 1,303,212 | 89,121 | 89,121 |
| **Amortizasiya olunmuş maya dəyərində qeydə alinan maliyyə ativləri** | **2,672,830** | **2,672,830** | **140,391** | **140,391** |

| | 31 dekabr 2021-ci il | | 31 dekabr 2020-ci il | |
|---|---|---|---|---|
| | **Balans dəyəri** | **Ədalətli dəyər** | **Balans dəyəri** | **Ədalətli dəyər** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Borc vəsaitləri | 1,175,721 | 1,175,721 | 793,940 | 793,940 |
| Buraxılmış borc qiymətli kağızları | 3,020,139 | 3,141,772 | - | - |
| Səhmdardan alınmış borc öhdəlikləri | 22,500 | 22,500 | 245,038 | 245,038 |
| Kreditor borcları | 373,207 | 373,207 | - | - |
| Digər cari öhdəliklər | 156,982 | 156,982 | 30,553 | 30,553 |
| **Amortizasiya olunmuş maya dəyərində qeydə alinan maliyyə öhdəlikləri** | **4,748,549** | **4,870,182** | **1,069,531** | **1,069,531** |

## 25. Maliyyə risklərinin idarə edilməsi

Risklərin idarə edilməsi Qrupun fəaliyyətinin vacib elementidir. Qrupun əməliyyatlarına xas olan əsas risklər aşağıdakı kimidir:

- Kredit riski;
- Likvidlik riski;
- Bazar riski.

Qrup, effektiv və effektiv risklərin idarə edilməsi proseslərinin olmasının vacib olduğunu qəbul edir. Buna nail olmaq və Qrupu mümkün risklərdən qorumaq üçün Qrup risklərin idarə edilməsi prinsiplərini yaratdı. Risklərin idarə edilməsi çərçivəsi əsasında Qrup aşağıdakı riskləri idar edir:

### Kredit riski

Qarşı tərəf borcunu müəyyən edilmiş ödəmə müddətində tam ödəyə bilmədikdə, Qrup kredit riskinə məruz qalır. Kredit riskinə məruz qalma Qrupun məhsullarını kredit şərtləri ilə satması və maliyyə aktivlərinin yaranmasına səbəb olan tərəflərlə aparılan digər əməliyyatlar nəticəsində yaranır.

### Maksimal məruz qalma

Qrupun konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatında kredit riskinə maksimum məruz qalan aktivlər balans dəyərində əks olunur. Mümkün kredit riskini azaltmaq üçün aktiv və öhdəliklərin qarşılıqlı təsirinin əhəmiyyəti yoxdur.

Aşağıdakı cədvəldə maliyyə aktivləri və şərti öhdəliklər üzrə kredit riskinin maksimal dərəcəsi göstərilir Maliyyə aktivləri üçün maksimum risk bu aktivlərin hər hansı bir əvəzləşdirilmədən və ya təminatdan əvvəl balans dəyərinə bərabərdir. Maliyyə qarantiyaları və digər şərti öhdəliklər üçün kredit riskinə məruz qalma dərəcəsi, zəmanət və ya borc məbləği tələb olunduğu təqdirdə, Qrupun ödəməli olduğu maksimal məbləğdir.

| | | | **31 dekabr 2021** |
|---|---|---|---|
| | **Maksimum məruz qalma** | **Silinmədən sonra məruz qalma** | **Silinmə və girovdan sonra məruz qalma** |
| Ticarət və digər debitor borcları | 1,369,618 | 1,369,618 | 1,369,618 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1,303,212 | 1,303,212 | 1,303,212 |

| | | | **31 dekabr 2020** |
|---|---|---|---|
| | **Maksimum məruz qalma** | **Silinmədən sonra məruz qalma** | **Silinmə və girovdan sonra məruz qalma** |
| Ticarət və digər debitor borcları | 51,270 | 51,270 | 51,270 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 89,121 | 89,121 | 89,121 |

## 25. Maliyyə risklərinin idarə edilməsi (davamı)

### Coğrafi risk konsentrasiyaları

Rəhbərlik qanunvericilikdə və tənzimləmə sahəsində riskə nəzarət edir və Qrupun fəaliyyətinə mümkün təsirini qiymətləndirir. Bu yanaşma Qrupa Azərbaycan Respublikasındakı investisiya mühitinin dəyişməsi nəticəsində mümkün ola biləcək itkiləri minimuma endirməyə imkan yaradır. 31 dekabr 2021 və 31 dekabr 2020-cu il tarixlərinə Qrupun maliyyə aktiv və öhdəliklərinin coğrafi konsentrasiyasının təhlili aşağıda göstərilir:

| | **Azərbaycan Respublikası** | **qeyri İƏİT ölkələr** | **İƏİT ölkələr** | **31 dekabr 2021** |
|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Ticarət və digər debitor borcları | 1,369,618 | - | - | 1,369,618 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1,303,212 | - | - | 1,303,212 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **2,672,830** | **-** | **-** | **2,672,830** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Borc vəsaitləri | 1,175,721 | - | - | 1,175,721 |
| Buraxılmış borc qiymətli kağızları | 3,020,139 | - | - | 3,020,139 |
| Səhmdardan alınmış borc öhdəlikləri | 22,500 | - | - | 22,500 |
| Kreditor borcları | 373,207 | - | - | 373,207 |
| Digər cari öhdəliklər | 156,982 | - | - | 156,982 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **4,748,549** | **-** | **-** | **4,748,549** |
| **XALİS VƏZİYYƏT** | **(2,075,719)** | **-** | **-** | **(2,075,719)** |

| | **Azərbaycan Respublikası** | **qeyri İƏİT ölkələr** | **İƏİT ölkələr** | **31 dekabr 2020** |
|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Ticarət və digər debitor borcları | 51,270 | - | - | 51,270 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 89,121 | - | - | 89,121 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **140,391** | **-** | **-** | **140,391** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Borc vəsaitləri | 793,940 | - | - | 793,940 |
| Səhmdardan alınmış borc öhdəlikləri | 245,038 | - | - | 245,038 |
| Digər cari öhdəliklər | 30,553 | - | - | 30,553 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **1,069,531** | **-** | **-** | **1,069,531** |
| **XALİS VƏZİYYƏT** | **(929,140)** | **-** | **-** | **(929,140)** |

## 25. Maliyyə risklərinin idarə edilməsi (davamı)

### Likvidlik riski

Likvidlik risklərinin 31 dekabr 2021-ci il və 31 dekabr 2020-ci il tarixlərinə təhlili aşağıdakı cədvəllərdə göstərilir:

| | 1 aydan qısa müddətli | 1 aydan 3 aya dək | 3 aydan 12 aya dək | 1 ildən 5 ilədək | Qeyri müəyyən vaxtadək | 31 dekabr 2021 |
|---|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | | |
| Ticarət və digər debitor borcları | 126,913 | 987,832 | 254,873 | - | - | 1,369,618 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1,303,212 | - | - | - | - | 1,303,212 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **1,430,125** | **987,832** | **254,873** | **-** | **-** | **2,672,830** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | | |
| Borc vəsaitləri | - | - | 1,175,721 | - | - | 1,175,721 |
| Buraxılmış borc qiymətli kağızları | - | 20,139 | - | 3,000,000 | - | 3,020,139 |
| Səhmdardan alınmış borc öhdəlikləri | - | - | - | 22,500 | - | 22,500 |
| Kreditor borcları | 95,239 | 159,093 | 118,875 | - | - | 373,207 |
| Digər cari öhdəliklər | 156,982 | - | - | - | - | 156,982 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **252,221** | **179,232** | **1,294,596** | **3,022,500** | **-** | **4,748,549** |
| **LİKVİDLİK BOŞLUĞU** | **1,177,904** | **808,600** | **(1,039,723)** | **(3,022,500)** | **-** | **(2,075,719)** |
| **MƏCMU LİKVİDLİK BOŞLUĞU** | **1,177,904** | **1,986,504** | **946,781** | **(2,075,719)** | **(2,075,719)** | |

| | 1 aydan qısa müddətli | 1 aydan 3 aya dək | 3 aydan 12 aya dək | 1 ildən 5 ilədək | Qeyri müəyyən vaxtadək | 31 dekabr 2020 |
|---|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | | |
| Ticarət və digər debitor borcları | 51,270 | - | - | - | - | 51,270 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 89,121 | - | - | - | - | 89,121 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **140,391** | **-** | **-** | **-** | **-** | **140,391** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | | |
| Borc vəsaitləri | - | - | 793,940 | - | - | 793,940 |
| Səhmdardan alınmış borc öhdəlikləri | - | - | 245,038 | - | - | 245,038 |
| Digər cari öhdəliklər | 30,553 | - | - | - | - | 30,553 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **30,553** | **-** | **1,038,978** | **-** | **-** | **1,069,531** |
| **LİKVİDLİK BOŞLUĞU** | **109,838** | **-** | **(1,038,978)** | **-** | **-** | **(929,140)** |
| **MƏCMU LİKVİDLİK BOŞLUĞU** | **109,838** | **109,838** | **(929,140)** | **(929,140)** | **(929,140)** | |

## 25. Maliyyə risklərinin idarə edilməsi (davamı)

### Bazar riski

Bazar riski Qrupun məruz qaldığı faiz dərəcəsi riskini, valyuta riskini və digər qiymət risklərini əhatə edir.

### Faiz dərəcəsi riski

Qrupun gəlirləri və əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını bazar faiz dərəcələrindəki dəyişikliklər üzrə riskə məruz qalmır. 31 dekabr 2021-ci il və 31 dekabr 2020-ci il tarixlərinə Qrupun faizli aktiv və passivləri üzrə sabit faiz dərəcələri hesablanır.

### Valyuta riski

Valyuta riski xarici valyuta məzənnələrinin dəyişməsi səbəbindən maliyyə alətinin dəyərinin dəyişməsi riski kimi müəyyən edilir. Üstünlük təşkil edən xarici valyuta məzənnələrinin dalğalanmasının effekti Qrupun maliyyə vəziyyəti haqqında və pul vəsaitlərinin hərəkəti haqqında konsolidasiya edilmiş hesabatlarında öz təsirini göstərir.

| | AZN | ABŞ dolları | Avro | 31 dekabr 2021 |
|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Ticarət və digər debitor borcları | 1,369,618 | - | - | 1,369,618 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1,302,188 | 1,024 | - | 1,303,212 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **2,671,806** | **1,024** | **-** | **2,672,830** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Borc vəsaitləri | 1,175,721 | - | - | 1,175,721 |
| Buraxılmış borc qiymətli kağızları | 3,020,139 | - | - | 3,020,139 |
| Səhmdardan alınmış borc öhdəlikləri | 22,500 | - | - | 22,500 |
| Kreditor borcları | 373,207 | - | - | 373,207 |
| Digər cari öhdəliklər | 156,982 | - | - | 156,982 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **4,748,549** | **-** | **-** | **4,748,549** |
| **XALİS VƏZİYYƏT** | **(2,076,743)** | **1,024** | **-** | **(2,075,719)** |

| | AZN | ABŞ dolları | Avro | 31 dekabr 2020 |
|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Ticarət və digər debitor borcları | 51,270 | - | - | 51,270 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 89,121 | - | - | 89,121 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **140,391** | **-** | **-** | **140,391** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Borc vəsaitləri | 793,940 | - | - | 793,940 |
| Səhmdardan alınmış borc öhdəlikləri | 245,038 | - | - | 245,038 |
| Digər cari öhdəliklər | 30,553 | - | - | 30,553 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **1,069,531** | **-** | **-** | **1,069,531** |
| **XALİS VƏZİYYƏT** | **(929,140)** | **-** | **-** | **(929,140)** |

## 25. Maliyyə risklərinin idarə edilməsi (davamı)

**Xarici valyuta riski**.

Aşağıdakı cədvəllər Qrupun ABŞ dolları və AVRO ilə manata nisbətdə yüzdə 10 artım və azalmasına həssaslığını əks etdirir. 10 faiz rəhbərliyin xarici valyuta məzənnələrinin mümkün dəyişikliyini qiymətləndirməsini təmsil edir. Həssaslıq təhlili yalnız dövriyyədə olan xarici valyuta ilə ifadə edilmiş pul maddələrini əhatə edir və dövrün sonunda valyuta məzənnələrinin 10 faiz dəyişməsi onların dəyişməsini tənzimləyir.

Həssaslıq təhlili xarici borcları, eləcə də borc verənin və ya borcalanın valyutasından başqa valyutada olduğu halda Qrup daxilində xarici əməliyyatlara verilən kreditləri əhatə edir.

| | **31 dekabr 2021** | | **31 dekabr 2020** | |
|---|---|---|---|---|
| | **Valyuta məzənnəsində dəyişiklik** | **Vergidən əvvəlki mənfəətə xalis təsir** | **Valyuta məzənnəsində dəyişiklik** | **Vergidən əvvəlki mənfəətə xalis təsir** |
| AZN/ABŞ Dolları | +10% | 102 | +10% | - |
| | -10% | (102) | -10% | - |
| AZN/Avro | +10% | - | +10% | - |
| | -10% | - | -10% | - |

**Qiymət riski**

Qiymət riski maliyyə alətinin dəyərinin bazar qiymətlərindəki dəyişikliklər nəticəsində fərdi təminata və ya onun emitentinə xas amillərdən və ya bazarda satılan bütün qiymətli kağızlara təsir edən amillərdən qaynaqlandığından asılı olaraq dəyişməsi riskidir. Qrup, ümumi və spesifik bazar dəyişkənliyinə məruz qalan məhsullarının qiymət risklərinə məruz qalır.

**Həssaslıq təhlilinin məhdudiyyətləri**

Yuxarıda təsvir edilən cədvəllər digər fərziyyələr dəyişməz qaldıqda əsas fərziyyədəki bir dəyişikliyin təsirini nümayiş etdirir. Bundan fərqli olaraq, real vəziyyətdə mümkün fərziyyələrlə digər amillər arasında əlaqə mövcuddur. Həm də qeyd etmək lazımdır ki, bu həssaslıqlar qeyri-xətti xarakter daşıyır və daha böyük və ya kiçik təsirlər bu nəticələrdən interpolasiya və ya ekstrapolyasiya edilməməlidir.
Həssaslıq təhlili Qrupun aktiv və öhdəliklərinin aktiv şəkildə idarə olunduğunu nəzərə almır. Bundan əlavə, Qrupun maliyyə vəziyyəti hər hansı bir bazar hərəkəti baş verdiyi zaman dəyişə bilər. Məsələn, Qrupun maliyyə risklərinin idarə edilməsi strategiyası bazar dəyişkənliyinə məruz qaldığı zaman risklərin idarə edilməsi məqsədi daşıyır. İnvestisiya bazarları müxtəlif sürətləndirici həssaslıq səviyyələrindən keçdiyindən, idarəetmə tədbirlərinə investisiyaların satılması, investisiya portfelinin bölgüsünün dəyişdirilməsi və digər qoruyucu tədbirlər də daxil ola bilər.
Beləliklə, fərziyyələrin dəyişməsinin faktiki təsiri öhdəliklərə təsir göstərə bilməz, halbuki aktivlər konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda bazar dəyəri ilə saxlanılır. Bu vəziyyətdə öhdəliklər və aktivlər üçün fərqli ölçmə əsasları səhmdar kapitalında dəyişkənliyə səbəb ola bilər.

## 26. Hesabat dövründən sonrakı hadisələr

11 mart 2022-ci il tarixli, 4-nömrəlli Protokola əsasən “Ekspress-C” Açıq Səhmdar Cəmiyyətinin adı dəyişdirlərək “AzeSteelCompany” Açıq Səhmdar Cəmiyyəti olaraq müəyyən edilmişdir.